**EVDƏ QAL, SAĞLAM QAL!**

**Vətəndaş məktubları: “Cənab Prezident, gördüyünüz işlər bir daha təsdiqləyir ki, dövlətimiz etibarlı əllərdədir”**



Bax 3

**Venesiya komissiyası Ermənistanla bağlı bəyanat yaydı**



Bax 5



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 103 (6068) 23 iyun 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Mövlud Çavuşoğlu: “Türkiyə Qarabağ məsələsində həmişə qardaş Azərbaycanın yanında olub və olacaq”



Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, eləcə də ona bitişik yeddi rayonu, ümumilikdə torpaqlarının iyirmi faizi Ermənistanın işğalı altındadır. Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunmazlığı çərçivəsində həll olunmalıdır və bunun vaxtı çatıb. Türkiyə bunu istəyir.

Bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Antalyada keçirdiyi mətbuat konfransında səsləndirib. Dağlıq Qarabağ problemi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrini və digər...

Bax 5

## Prezident İlham Əliyev Bakının Neapol küçəsindəki yerüstü piyada keçidinin açılışında iştirak edib



Bax 2

İsa Həbibbəyli: **“Prezident İlham Əliyev Paşinyana növbəti dəfə tarix dərsi keçdi”**



“Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa...

Bax 5

## Artur Vanesyan: “Paşinyan, nəticəsi çox ağır olacaq bir cinayətə yol verir”

Nikol Paşinyan hakimiyyətini qorumaq üçün hər şeyə əl atır və onu heç nə dayanmayacaq. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri “Rodina” partiyasının sədri...



Bax 14

## QMİ: Bu il Həcc ziyarəti baş tutmayacaq

*Bu il Azərbaycandan Həcc ziyarətinin baş tutması qeyri-mümkün görünür. Bu barədə SİA-ya Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) məlumat verilib. Qeyd olunub ki, hələ ki, Səudiyyə Ərəbistanından Həcc ziyarəti ilə bağlı hər hansı bildiriş gəlməyib, ancaq çox güman ki, “yox” cavabı veriləcək. Digər tərəfdən...*



Bax 10

## “Barselona”lı futbolçu “Yuventus”da 5,2 milyon avro qazanacaq

“Barselona”nın futbolçusu Artur karyerasını “Yuventus”da davam etdirə bilər. Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, Turin təmsilçisi 23 yaşlı yarımmüdafiəçiyə 5 illik müqavilə təklif edib. O, bu təklifi qəbul edəcəyi...



Bax 16

**23 İyun ölkəmizdə dövlət qulluqçularının peşə bayramıdır**




Bax 12

**DYP: SMS icazə ilə rayonlara getmək istəyənlər postlardan buraxılmayacaqlar**



Bax 12

**“Suya qənaətlə bağlı təcili işlər görülmədidir”**



Bax 12

# Prezident İlham Əliyev Bakının Neapol küçəsindəki yerüstü piyada keçidinin açılışında iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verdi.***

Bildirildi ki, yüksək zövq, tam fərqli görkəm, müasir texnologiyalar əsasında inşa olunan bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir.





Yeni inşa olunan piyada keçidi Heydər Əliyev Parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınan və həmin il açılışında ulu öndər Heydər Əliyevin şəxsən iştirak etdiyi bu park rayon sakinlərinin ən sevimli istirahət məkanıdır.

Qeyd edək ki, bu keçidin inşasına qədər ərazidə piyadalar üçün çox böyük çətinliklər olurdu. Onlar xüsusən günün pik saatlarında yolu keçməkdə problemlə üzləşirdilər. Bundan başqa, piyadaların bu ərazidə yolu keçməsi nəqliyyat vasitələrinin hərəkətinə də mane olurdu. Beləliklə, ərazidə piyadalar təhlükə, avtomobillər isə tıxacla qarşılaşırdılar. Yeni keçidin inşası bütün bu problemləri həll edib. Burada fiziki məhdudiyyətli insanların rahatlığını təmin etmək üçün 2 müasir lift quraşdırılıb. Bu qurğunun inşası qısa müddətə, eyni zamanda, yüksək keyfiyyətlə aparılıb. Yeni keçid müasir görünüşü ilə fərqlənir.



Prezident İlham Əliyevə, həmçinin məlumat verildi ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirilərək zolaqların sayı 4-ə çatdırılıb. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaşanan tıxacların aradan qaldırılması məqsədilə icra edilən bu layihə çərçivəsində "20 Yanvar" dairəsində yolun hərəkət hissəsi 10 metrə qədər, magistral yol Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissədə isə hər iki istiqamət üzrə 1 hərəkət zolağı enində genişləndirilib.

Qeyd edək ki, avtomobil yollarında piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hərəkətin intensiv olduğu ərazilərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi diqqət yetirilir. Son dövrlərdə paytaxtda bu istiqamətdə görülən işlərə nəzər salsaq, bunun şahidi olarıq. Belə ki, 2018-2019-cu illərdə Bakıda və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi istifadəyə verilib. 2020-ci ilin əvvəlindən indiyədək paytaxtda Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsində yeraltı piyada keçidi, Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində və Neapol küçəsində yerüstü piyada keçidləri inşa olunub. Hazırda Azadlıq prospekti, Qala-Pirallahı, Mərdəkan-Buzovna, Bakı-Sumqayıt yollarında və digər ərazilərdə piyada keçidlərinin inşası yekunlaşmaq üzrədir. Bundan başqa, bir neçə yerdə isə bu cür qurğuların tikintisi davam etdirilir.

Azərbaycan Prezidenti İlham Əliyev görülən işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.



# Vətəndaş məktubları: "Cənab Prezident, gördüyünüz işlər bir daha təsdiqləyir ki, dövlətimiz etibarlı əllərdədir"



***Azərbaycan Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***

Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindən Sevinc Alıyeva yazır: "Hörmətli cənab Prezident, bütün Azərbaycan vətəndaşları kimi, biz də ailəliklə Sizin kimi müdrik rəhbərimizin fəaliyyətini müşahidə edir və səylərinizi yüksək qiymətləndiririk. COVID-19 pandemiyasının ölkəmizə ayaq açdığı andan virusun qarşısını almaq üçün gördüyünüz bütün qabaqlayıcı tədbirlərə və bu gün də apardığınız mübarizəyə görə fəxr edirik. Cənab Prezident, Allahdan Sizə və ailənizə möhkəm cansağlığı diləyir, bizi hər zaman düşündüyünüz və ölkəmizin qayğısına qaldığınız üçün Zati-alinizə təşəkkürümüzü bildirirəm".

Gəncə şəhərindən Sevinc Kazımova: "Çox hörmətli cənab Prezident, bu məktubu yazmaqla Sizə - gündən-günə inkişaf edən müstəqil Azərbaycanın Prezidentinə təşəkkürümü bildirirəm və bunu özümə vətəndaşlıq borcu hesab edirəm. Sizin sayənizdə həm ölkəmiz inkişaf edir, həm də insanları narahat edən məsələlər öz həllini tapır. Həmçinin Sizin COVID-19 pandemiyası dövründə etdiyiniz "Biz birlikdə güclüyük!" çağırışınız hər bir vətəndaş kimi, məndə də qürur hissi yaşatdı və məni ruhlandırdı. Əminik ki, Sizin və Birinci vitse-prezidentimiz xanım Mehriban Əliyevanın köməyi sayəsində biz bu pandemiyadan qalib çıxacağıq. Vaxtında atılmış addımlar, gördüyünüz operativ işlər, qəbul etdiyiniz düzgün qərarlar xalqımızın bu epidemiyadan az itkilərlə çıxmasına zəmin yaradır. Siz öz əməli fəaliyyətinizlə hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunuzu bir daha sübut edirsiniz. Bütün bunlar onu təsdiqləyir ki, dövlətimiz etibarlı əllərdədir. Əziz Prezidentimiz, xalqa göstərdiyiniz diqqət və qayğıya görə bir daha Sizə təşəkkür edir, uzun ömür, cansağlığı arzulayıram. Uca Tanrının nəzəri üzərinizdən əskik olmasın!".

Ağcabədinin Avşar kəndindən Ədalət Hüseynov: "Çox hörmətli cənab Prezident, paytaxt Bakı, onun rayonları, qəsəbə və kəndləri, eyni zamanda, respublikamızın bütün rayon və kəndləri Sizin böyük diqqət və qayğınız nəticəsində gündən-günə abadlaşır və inkişaf edir. Əhalinin maddi rifah halı getdikcə yaxşılaşır. Bütün bunlar, eləcə də gördüyünüz digər mühüm işlər, beynəlxalq aləmdə böyük siyasi xadim kimi misilsiz şöhrət qazanmağınız milyonlarla azərbaycanlıdan biri kimi mənim də qəlbimi sonsuz iftixar və qürur hissi ilə doldurur. İşlərinizin çox olduğu bir vaxtda imkan taparaq ölkəmizin müxtəlif bölgələrinə etdiyiniz səfərlər, sadə insanlarla görüşləriniz Sizə ümumxalq məhəbbəti qazandırıb. Cənab Prezident, belə bir unudulmaz sevinc yaşadığım rayonun əhalisinə də nəsib oldu. İyunun 4-də verdiyiniz Sərəncam Ağcabədi sakinlərinin hədsiz sevincinə səbəb olmaqla hər birimizin qəlbində silinməz izlər buraxıb. Bütün bunlara görə Sizə dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayır, Ulu Tanrının bütün arzu və ideyalarınızın həyata keçməsində daim Sizə yardımçı olmasını diləyirəm".

Neftçala şəhərindən Rövşən Mirzəyev: "Hörmətli cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun ki, bu çətin dövrdə xalqımızı bəşəriyyəti bürümüş koronavirus bəlasından qoruyursunuz. Pandemiya müxtəlif ölkələrdə minlərlə insanın ölümünə səbəb olub. Azərbaycanda isə Sizin verdiyiniz müdrik qərarlar sayəsində bu dəhşətli bəlanın zamanında qarşısının alınması üçün lazımi tədbirlər həyata keçirildi. Ümumdünya Səhiyyə Təşkilatı da ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan tədbirləri yüksək qiymətləndirir və bu addımlar başqa dövlətlərə nümunə göstərilir. Biz nümunəvi ölkənin vətəndaşları olduğumuz üçün fəxr edirik. Möhtərəm cənab Prezident, Ulu Tanrı Sizə və ailənizə kömək olsun!".

Şirvan şəhərindən Dürdanə Əzizli: "Hörmətli cənab Prezident, ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ilin iyun ayında Azərbaycan xalqının səsinə səs verərək hakimiyyətə yenidən qayıdışı ilə xalqımızı faciələrdən qoruduğu kimi, Siz də bu gün xalqımızı çox böyük bəlalardan qoruyur, hər bir vətəndaşın sağlamlığının qayğısına qalırsınız. Dünyanı bürüyən pandemiya dövründə dünyanın əksər inkişaf etmiş ölkələrində belə çarpayı çatışmazlığı ucbatından xəstələrin hətta xəstəxanalara götürülmədiyi bir halda, bizim bütün xəstələrimiz xəstəxanalarda yerləşdirilir və həkimlər onlara gecə-gündüz xidmət göstərirlər. Sizin uzaqgörən siyasətiniz nəticəsində modul tipli xəstəxanaların sayı artırılır və tikintisi sürətlə davam etdirilir. Biz şirvanlılar xalqımızın sağlamlığını düşünərək qəbul etdiyiniz bu qərarlara görə Sizə təşəkkür edirik. Biz tam əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı tezliklə qarşısına çıxan bu bəlaya qalib gələcəkdir. Allah Sizi və ailənizi qorusun!".

Cəbrayıl rayonundan məcburi köçkün, II qrup Qarabağ müharibəsi əlili Murad Ağayarov: "Çox hörmətli cənab Prezident, biz Qarabağ müharibəsi əlilləri və məcburi köçkünlər daim Sizin və Mehriban xanım Əliyevanın diqqət və qayğısını görmüşük. 1993-cü ildə erməni təcavüzü nəticəsində torpaqlarımız işğal olunduqdan sonra müvəqqəti olaraq Ceyranbatan qəsəbəsi ərazisində məskunlaşdıq, şəraitimiz çox acınacaqlı və ağır idi. 2012-ci ildə Sizin tapşırığınıza əsasən Qaradağ rayonu Müşfiqabad qəsəbəsində 1680 ailə üçün nəzərdə tutulan binalar inşa edildi və 2013-cü ildə biz məcburi köçkünlərə verildi. Hazırda həmin mənzillərdə çox gözəl şəraitdə yaşayırıq. Cənab Prezident, koronavirus pandemiyasının bütün dünyaya sürətlə yayıldığı zamanda Sizin vaxtında müdrik və çevik addımlarınız sayəsində bizim ölkədə virusun geniş yayılmasının, insan ölümünün çox olmasının qarşısı alınmaqdadır. Pandemiyanın bütün dünyaya vurduğu iqtisadi zərərə baxmayaraq, bizim ölkədə abadlıq-quruculuq işləri dayanmadı və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq üçün binaların inşası başa çatdırıldı. Ötən ay "Qobu Park 3" yaşayış kompleksinin açılışı buna əyani sübutdur. Görülən bütün bu işlər Sizin apardığınız uğurlu xarici və daxili siyasətin nəticəsidir. Biz məcburi köçkünlər hər zaman ətrafınızda sıx birləşərək Sizin "Biz birlikdə güclüyük!" şüarınızı dəstəkləyirik".

Lənkəran rayonunun Liman şəhərindən İnqilab Nuriyev: "Çox hörmətli cənab Prezident, mənim övladım Azərbaycan Kooperasiya Universitetinin 2-ci kurs tələbəsidir, ödənişli əsaslarla təhsil alır. COVID-19 pandemiyası dövründə verdiyiniz humanist tapşırıqlardan biri də ödənişli təhsil alan tələbələrin bu il üçün təhsil haqqının dövlətimiz tərəfindən ödənilməsi oldu. Sözsüz ki, bu addım yüzlərlə aztəminatlı ailə kimi mənim ailəmi də sevindirdi. Cənab Prezident, Siz ölkə vətəndaşlarının hər zaman dar gündə yanında olmusunuz. Buna görə də Sizə ailəmin adından dərin minnətdarlığımı bildirirəm. İşləriniz avand olsun!".

# FOROFAKT: Ermənistan "Qarabağ Azərbaycanındır və nida işarəsi!" bəyanatını qəbul edir!

*Bunu işğalçı ölkənin pasport idarəsi də isbatlayıb*




Bir neçə gün əvvəl erməni KİV-lərində Ermənistan vətəndaşı, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocavənd (ermənilər Martuni adlandırır) rayonunda anadan olmuş şəxsin pasportunun şəkli yayılmışdı. SİA-nın məlumatına görə, Ermənistanın pasport idarəsi xanım vətəndaşın doğulduğu yeri Azərbaycan olaraq qeyd edib. Nəticədə bu reallıq radikal və ultramillətçi ermənilərin etirazlarına səbəb olub. Lakin bu amil həm də onu sübut edir ki, erməni millətçilərinin səs-küylərinə, haray-həşirlərinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ Azərbaycanındır və nida işarəsi!" bəyanatını elə Ermənistanın dövlət idarələri də təsdiq edirlər. Yəni sözügedən pasportdakı yer adı isbatlayır ki, bu gün "Dağlıq Qarabağ Respublikası" adlı müstəqil subyekt mövcud deyil. Bu arada "Çiçəklənən Ermənistan" partiyasından olan deputat Naira Zoqrabyan jurnalistlərlə söhbətində bildirib ki, Qarabağda doğulmuş insanların pasportlarında doğulduğu yerin Azərbaycan kimi göstərilməsi "siyasi nöqteyi-nəzərdən anlaşılan deyil".

Ancaq erməni pasportlarında ərazi olaraq Azərbaycanın göstərilməsi Ermənistan siyasətinin işğalçılıq və aqressivlik üzərində dayandığını növbəti dəfə sübut etməkdədir.

## Hətta Ermənistanın özü də separatçı qurumun "müstəqilliyini" tanımır

Sovet zamanlarında Dağlıq Qarabağ muxtar vilayət olaraq Azərbaycanın tərkibində idi və hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağda anadan olan ermənilərin doğum yerləri kimi məhz Azərbaycan göstərilir. Bu baxımdan da əminliklə nəticəyə gəlmək olar ki, son onilliklər boyunca ermənilərin işğalçılıq siyasətlərinə haqq qazandırmaq cəhdləri fiaskoya uğrayıb.

Məsələn, ötən illərdə ermənilər "DQR"in beynəlxalq arenaya çıxarılması üçün dəfələrlə cəhdlər göstərsələr də, buna nail ola bilməyiblər. Hətta digər separatçı "respublikalarla" (Abxaziya, Cənubi Osetiya, Dnestryanı və s.), Qərb ölkələrinin kiçik bələdiyyələri ilə "razılaşmalar" əldə olunsa belə, bütün bunlar hüquqi qanunsuzluq adlandırılıb və beynəlxalq aləm tərəfindən tanınmayıb. Fəqət, daha bir fakt budur ki, hətta hazırkı zamanda Ermənistanın özü də separatçı qurumun "müstəqilliyini" tanımır.

Hətta Ermənistan hər dəfə Dağlıq Qarabağın guya Azərbaycanın ərazisi olmadığını bəyan etsə belə, bu cəhdlər rəsmi Bakı tərəfindən ciddi hüquqi və tarixi arqumentlərlə rədd edilir. Beynəlxalq aləm də bilavasitə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan etməklə yanaşı, Ermənistanın işğalçılıq siyasəti yürütdüyünü faktiki olaraq ortaya qoyurlar.

Ermənistanın dövlət orqanları bilavasitə beynəlxalq hüquq çərçivəsində fəaliyyət göstərmək və Dağlıq Qarabağı rəsmən Azərbaycanın ərazisi qismində görmək məcburiyyətindədir

O cümlədən, əgər Ermənistan hər dəfə Dağlıq Qarabağın Azərbaycanın ərazisi olmadığını öz təbirincə sübut etməyə cəhdlər göstərirsə, bu zaman növbəti məntiqi sual meydana çıxır: Yaxşı, əgər Ermənistan həmin cəhdlərini davam etdirirsə, onda nəyə görə Dağlıq Qarabağda doğulmuş vətəndaşlarının doğum əraziləri olaraq Azərbaycanı göstərirlər?

Artıq Ermənistanın dövlət orqanları bilavasitə beynəlxalq hüquq çərçivəsində fəaliyyət göstərmək və Dağlıq Qarabağı rəsmən Azərbaycanın ərazisi qismində görmək məcburiyyətindədir. Hər halda, işğalçı ölkə uğursuz siyasətindən əl çəkməli və bütün cəbhələrdə məğlub olduğunu etiraf etməlidir. Buna sübut kimi də məhz rəsmi Bakının "Dağlıq Qarabağ erməniləri Azərbaycan Respublikasının vətəndaşlarıdırlar" rəsmi tezisini, bəyanatını göstərmək olar.

***Rövşən RƏSULOV***

# İsa Həbibbəyli: "Prezident İlham Əliyev Paşinyana növbəti dəfə tarix dərsi keçdi"



"Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa etdi". Bunu SİA-ya açıqlamasında AMEA-nın vitse-prezidenti, millət vəkili İsa Həbibbəyli deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev Paşinyana növbəti dəfə tarix dərsi keçdi: "Azərbaycan öz milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir və Avropa İttifaqı da ölkəmizlə münasibətlərin inkişafında maraqlı tərəf kimi çıxış edir və iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı da bunu bir daha vurğuladı. Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur".

İ.Həbibbəyli onu da bildirib ki, Prezident İlham Əliyev əvvəlki sammitdə olduğu kimi, bu sammitdə də Ermənistan baş nazirinin yalanlarını ifşa edib və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyini, eləcə də, tarixi faktlar və reallıqları qətiyyətlə bəyan edib: "Daha dəqiq desək, Azərbaycan Prezidenti İlham Əliyev Paşinyana növbəti dəfə tarix dərsi keçdi. Və dövlətimizin başçısı Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyini, işğal olunmuş torpaqlarda mülki azərbaycanlılara qarşı etnik təmizləmə apardığını, ermənilərin işğal altındakı torpaqlarımızda mədəni irsimizi məhv etdiklərini, Dağlıq Qarabağda Ermənistanın heç bir tarixi irsinin olmadığını bir daha səsləndirdi. Prezident İlham Əliyev sammitdə vurğulayıb ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri şəksiz yerinə yetirilməlidir. Və Azərbaycanın qəti və birmənalı mövqeyi ondan ibarətdir ki,Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır. Çünki Dağlıq Qarabağ həm tarixi, həm də məhz hüquqi baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsidir".

İ.Həbibbəylinin sözlərinə görə, növbəti dəfə Paşinyan Azərbaycan Prezidenti tərəfindən səsləndirilən tarixi həqiqətlər və təqdim edilən faktlar qarşısında aciz durumda qaldı: "Ən gülünc məqamın Paşinyanın irqçilik məsələsinə toxunması və dövlət başçısının tutarlı cavabı ilə onu yerində oturtması oldu. Sammitdə Prezident İlham Əliyevin cavabı sərt və tutarlı olub. Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim".

İ.Həbibbəylinin sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin6 çıxışına cavab verməyə çalışan N.Paşinyan Aşqabadda MDB Zirvə görüşündə və Münhen Təhlükəsizlik Konfransında olduğu kimi tam iflasa uğradı: "Prezident İlham Əliyev sammitdə səlis və mükəmməl ingilis dilində faktlara əsaslanaraq N.Paşinyanın yalanlarını ifşa etməsi iki ölkə rəhbərinin müqayisəyə gəlmədiyini sübuta yetirdi və aciz və gülməli duruma düşməsi bir daha onun "küçə ritorikası"na əsaslandığını nümayiş etdirdi. N.Paşinyan bir daha göstərdi ki, mitinqlərdə çıxış etməklə belə səviyyəli konfranslarda çıxış etmək, dövlət idarəçiliyi tamamilə ayrı-ayrı anlayışlardır. Azərbaycan Prezidentinin Ermənistan baş nazirini növbəti dəfə siyasi iflasa uğratması faktını hətta Ermənistan mətbuatı və ictimaiyyəti də etiraf etmək məcburiyyətindədir. Bütün bunlar bir daha sübut etdi ki, Paşinyan beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi".

***RƏFİQƏ KAMALQIZI***

## Müdafiə naziri Moskvada keçiriləcək hərbi parada dəvət olunub

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu tərəfindən Moskvada keçiriləcək hərbi parada dəvət olunub. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən məlumat verilib. General-polkovnik Z.Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 24-də keçiriləcək Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda qonaq qismində iştirak edəcək. Nümayəndə heyəti iyunun 23-də Moskva şəhərinə yola düşəcək. Qeyd edək ki, paradda ölkəmizi Azərbaycan Ordusunun 75 hərbi qulluqçusundan ibarət parad heyəti təmsil edəcək.



## Azərbaycanda koronavirusdan 7 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 478 yoluxma faktı qeydə alınıb, 369 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 13 min 207 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 7168 nəfər müalicə olunaraq sağalıb, 161 nəfər vəfat edib. Aktiv xəstə sayı 5878 nəfərdir. Ötən müddət ərzində 426 min 394 test aparılıb. Bugünkü test sayı isə 4345-dir.

# Vüsal Qasımlı: "Azərbaycanın pandemiya ilə mübarizə büdcəsi 3,5 milyard manat civarındadır"



Pandemiya dövründə Azərbaycan manatı regionun digər valyutaları ilə müqayisədə daha sabit qalıb. SİA-nın məlumatına görə, bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib. V.Qasımlı bildirib ki, manatın sabitliyi 2019-cu ildə inqilabi islahatların nəticələrinin qorunması baxımından çox əhəmiyyətlidir. Bildiyiniz kimi, ötən il 4,2 milyon insanı əhatə edən sosial paket həyata keçirilib. Maaşlar, müavinatlar, sosial ödənişlər dəfələrlə artırılıb. Əgər bu il devalvasiya olsaydı, əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir edərdi: "Azərbaycanda manatın sabitliyi devalvasiyaya imkan vermədi. Bu gün biz manatın effektiv məzənnəsinin bahalaşmasının şahidi oluruq, bu, son 5 ildə ən yüksək həddə çatıb".

İcraçı direktorun sözlərinə görə, Azərbaycanın pandemiya ilə mübarizə büdcəsi 3,5 milyard manat civarındadır, bu isə ümumi daxili məhsulun 4,3 faizini təşkil edir: "Bu, kifayət qədər böyük vəsaitdir, bu rəqəmi digər ölkələrlə müqayisə etsək, görərik ki, Azərbaycan koronavirusla mübarizəyə böyük məbləğdə vəsait ayırıb. Bunun nəticəsidir ki, beynəlxalq təşkilatlar Azərbaycanı pandemiyadan daha az zərər görən ölkələr sırasına aid edirlər".



## Elmar Məmmədyarov: "Azərbaycan Cammu və Kəşmir məsələsinin sülh yolu ilə həllini dəstəkləyir"

Azərbaycan beynəlxalq birliyin məsul üzvü olaraq Cammu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, habelə beynəlxalq humanitar hüquqa tam hörmətlə, sülh yolu ilə həllini dəstəkləyir. Nəticədə məsələnin davamlı həllinə səbəb olacaq səyləri davam etdirməyə aşkar bir ehtiyac var. Cammu və Kəşmir məsələsi ilə əlaqəli bütün həll edilməmiş məsələlərin sülh yolu ilə həlli, daha geniş Cənubi Asiya bölgəsində sülh və təhlükəsizliyin təmin edilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Xarici İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, bunu Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Əlaqə Qrupunun Cammu və Kəşmir üzrə virtual görüşündə çıxışı zamanı deyib.

Nazir bildirib: "Cammu və Kəşmir üzrə İƏT Əlaqə Qrupunun üzvü olaraq, Azərbaycan bu formatı İƏT üzvü olan dövlətlərin müvafiq İƏT qərarlarından irəli gələn öhdəliklərinin yerinə yetirilməsi vəziyyətini nəzərdən keçirmək üçün vacib və faydalı bir mexanizm hesab edir. Azərbaycan yaxın vaxtlarda bölgədə sülhün və əmin-amanlığın bərqərar olacağına inamla Təmas Qrupunun işində fəal iştirakını davam etdirəcəkdir.

Məlum olduğu kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil olmaqla Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, habelə bir milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərindəki Azərbaycan tarixi və islam irsinə aid əsərlər də daxil olmaqla çoxsaylı tarixi, mədəniyyət və dini abidələr vəhşicəsinə məhv edilmişdir. Azərbaycan hökuməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurası və İƏT-in müvafiq qətnamələri əsasında sülh yolu ilə həllinə sadiq qalsa da, Azərbaycan ərazi bütövlüyü və suverenliyini tam əsasda bərpa etmək üçün lazım olan bütün vasitələrdən istifadə etmək qanuni haqqını qoruyub saxlayır.

Sonda vurğulamaq istərdim ki, COVID-19 pandemiyasının çətin şərtlərində beynəlxalq birlik bundan sonra təcavüz və işğalın nəticələrini daha da möhkəmləndirmək məqsədilə beynəlxalq münasibətlərin hazırkı vəziyyətindən istifadə etmək istəyənlərin səylərinə qarşı durmaqda xüsusi hazır olmalıdır. Bu baxımdan, İƏT çərçivəsində birlik və birgə fəaliyyət həmrəyliyimizin möhkəmləndirilməsində çox vacibdir və bununla da pandemiya nəticəsində vurulan ciddi zərərin azaldılmasında və beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında birgə gücümüzü artırır".

## Mövlud Çavuşoğlu: "Türkiyə Qarabağ məsələsində həmişə qardaş Azərbaycanın yanında olub və olacaq"



Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, eləcə də ona bitişik yeddi rayonu, ümumilikdə torpaqlarının iyirmi faizi Ermənistanın işğalı altındadır. Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunmazlığı çərçivəsində həll olunmalıdır və bunun vaxtı çatıb. Türkiyə bunu istəyir.

Bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Antalyada keçirdiyi mətbuat konfransında səsləndirib. Dağlıq Qarabağ problemi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrini və digər beynəlxalq təşkilatların qərarlarını xatırladan nazir deyib: "Bu sənədlərdən aydın şəkildə görünür ki, həmin torpaqlar Azərbaycan əraziləridir. Təəssüf ki, ATƏT-in Minsk qrupu münaqişənin həllində üzərinə düşən vəzifəni lazımi şəkildə yerinə yetirmədi. Bir neçə ay öncə onları Ankaraya dəvət edərək problemin diplomatik yolla həlli üçün səylərini artırmalarını istədik. Biz həm Rusiya, həm də ABŞ ilə danışıqlarımızda bu məsələni daim gündəmə gətiririk. Artıq bu problemin həll olunmasının vaxtı çatıb".

Mövlud Çavuşoğlu Azərbaycanın konstruktiv mövqe nümayiş etdirməsinə baxmayaraq, Ermənistanın buna qarşılıq vermədiyini vurğulayıb. "Habuki beynəlxalq təşkilatların qərarları var, bütün dünya səy göstərir. Digər tərəfdən, Qarabağda qondarma seçkilər keçirdilər. Biz beynəlxalq təşkilatlardan, Minsk qrupundan bu seçkiləri tanımamağı və bunu açıq şəkildə söyləmələrini tələb etdik. Onlar bunu etdilər. Beynəlxalq ictimaiyyət bu seçkiləri tanımadığını söylədi. Ermənistan bu cür təxribatlara əl atmaq əvəzinə, münaqişənin sülh yolu ilə həllinə səy göstərməlidir. Biz hər bir məsələdə olduğu kimi, işğal olunmuş torpaqlar və Qarabağ məsələsində də hər vasitə ilə qardaş Azərbaycanın yanındayıq, bundan sonra da yanında olacağıq. Azərbaycan bu problemin necə həll olunmasını istəyirsə, biz də o şəkildə Azərbaycanın yanında olmağa davam edəcəyik", - deyə Türkiyə XİN rəhbəri bildirib.

## BMT: "Dünyada turizmə 195 milyard dollar ziyan dəyib"



2020-ci ilin ilk dörd ayı ərzində dünyada turizm gəlirləri ötən ilin əvvəli ilə müqayisədə 195 milyard dollar azalıb. Bu barədə BMT-nin Ümumdünya Turizm Təşkilatının hesabatında deyilir. Hesabatda qeyd olunur ki, yanvar-aprel aylarında digər ölkələrə səyahət edən turistlərin sayı 97 faiz azalıb.

Təşkilatın proqnozlarına əsasən, 2020-ci il ərzində turistlərin sayı 850 milyon - 1,1 milyard nəfər, turizm gəlirləri isə 910 milyard - 1,2 trilyon dollar azala bilər. Qeyd edək ki, 2019-cu ildə digər ölkələrə səfər edən turistlərin sayı 1,5 milyard nəfərə çatmışdı. Bu, 2018-ci illə müqayisədə 4 faiz çox idi.

## Venesiya komissiyası Ermənistanla bağlı bəyanat yaydı




Venesiya komissiyasının 19 iyunda qəbul edilmiş və bu gün ictimailəşdirilmiş konsultativ fikri Ermənistanın Milli məclisi (parlamenti) və Konstitusiya məhkəməsi arasında konstitusiya böhranına səbəb olmuş problemi həll etmək imkanı verir.SİA aysor.am-a istinadən xəbər verir ki, bunu bu gün Avropa Şurasının baş katibi Mariya Peyçinovuç-Buriç bəyan edib.

"Venesiya komissiyasının fikri konstitusiyaya dəyişikliklər məsələsində Konstitusiya məhkəməsinin işinə yenidən baxılması çərçivəsindədir", bildirilən bəyanatda o da qeyd olunur ki, komissiya eyni zamanda parlamentin referendum barədə qərarını dəyişməyə çağırır. Bundan əlavə, Venesiya komissiyası Konstitusiyanın 2015-ci ildəki vəziyyətini qəbul və qanuni hesab edir. Avropa Şurasının katibi həmçinin qeyd edib ki, Venesiya komissiyası keçid dövrünü əhatə edən müvafiq qərardan təəssüf hissi keçirir. "Mən hakimiyyəti konstitusiya böhranını aşmaq üçün Venesiya komissiyasının təklifləri ilə razılaşmağa və Konstitusiyanın Avropa Şurasının standartlarına cavab verən 2015-ci ildəki vəziyyətinə müdaxilə etməməyə çağırıram", deyə bəyanatda bildirilir.

*Rövşən*

## "Azərbaycan Avropa birliyinin enerji təhlükəsizliyinə töhvə verən ölkədir"

"Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Nəzərə alsaq ki, Azərbaycanın ümumi ticarət dövriyyəsinin 40 faizindən çoxu Avropa Birliyinin payına düşür, eyni zamanda Azərbaycan ixracatının təxminən yarısı məhz Avropa Birliyinə yönəlib, həmçinin Azərbaycan Avropa Birliyi ilə Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində əməkdaşlıq edir və Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində həyata keçirilən əməkdaşlıqdan da biri də iqtisadi inteqrasiya və standartların uyğunlaşdırılması istiqamətidir. Həmin istiqamətdə də Azərbaycan Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində Avropa Birliyi ilə məhz standartların tətbiq edilməsi istiqamətində əməkdaşlığı davam etdirir. Eyni zamanda təbii ki, Avropa Birliyi Azərbaycan üçün əsas yeni bazardır. Bu sözləri SİA-ya verdiyi açıqlamada iqtisadçı ekspert, Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

Millət vəkilinin sözlərinə görə, nəzərə alsaq ki, Avropa Birliyi 500 milyondan artıq istehlakçısı olan bir bazardır və Azərbaycan məhsullarının Avropa Birliyi ölkələri bazarına daxil olması əsas prioritetlərdən biridir, rəqabətli bazardır, bu bazar rentabellidir və xüsusən, qeyri-neft sektorunda çalışan sahibkarlar üçün də gəlir əldə etmək imkanları daha genişdir. "Təbii ki, Azərbaycan da Avropa birliyinin enerji təhlükəsizliyinə töhvə verən ölkədir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan Cənub Qaz Dəhlizi Avropanın və xüsusən Cənubi Avropanın enerji təhlükəsizliyinə birbaşa töhfə verəcək. Artıq bu il ərzində məhz TAP-ın tikintisinin tamamlanması və artıq mavi qazın son olaraq İtaliya bazarına çıxarılacağı gözlənilir. Bu da nəticə etibarı ilə imkan verəcək ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində yeni alternativ mənbə rolunu oynasın." deyə Vüqar Bayramov bildirib.

## Azərbaycan Ordusu bölmələrinin dağlıq ərazidə təlimi keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən dağlıq ərazidə hücumun planlaşdırılması və aparılması tapşırıqlarının icrası üzrə Azərbaycan Ordusu bölmələrinin təlimi keçirilib. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, təlimə 800 nəfərədək şəxsi heyət, 100-dək zirehli döyüş və avtomobil texnikası, 40-dək müxtəlif çaplı artilleriya qurğusu, 6 ədəd döyüş və nəqliyyat helikopterləri cəlb olunub. Təlimin məqsədi komandirlərin dağlıq ərazidə döyüş bacarıqlarının təkmilləşdirilməsi, dağlıq ərazidə hücum döyüşlərinin aparılması zamanı bölmələrin idarəolunması, şəxsi heyətin fiziki dözümlülüyünün yoxlanılması, eləcə də bölmələrin qarşılıqlı fəaliyyətinin təşkili olub. Həyəcan siqnalı ilə qaldırılan bölmələr ehtiyat rayonunun tutulması, dağ aşırımlarının və hakim yüksəkliklərin ələ keçirilməsi, əsas qüvvələrin hücumu üçün əlverişli şərait yaradılması tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirilib.Təlimin yekun mərhələsində döyüş atışları icra olunub.

# Azərbaycan Prezidentinin məntiqli çıxışı qarşısında rəzil duruma düşən Paşinyan...

*Prezident İlham Əliyev: “Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyı”*

***İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində iştirak edən ölkə Prezidenti İlham Əliyev çıxışı zamanı Avropa İttifaqı ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən olduğunu bildirib: “Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur”.***




Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb: “Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında “Tərəfdaşlıq Prioritetləri” sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir”.

### “İşğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda böyük nəticələr əldə edib”

Azərbaycan Prezidenti çıxışı zamanı bildirib ki, ölkəmiz işğala və humanitar fəlakətə baxmayaraq sosial-iqtisadi inkişfda böyük nəticələr əldə edib: “İşğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda böyük nəticələr əldə edib. Son 16 ildə ümumi daxili məhsulumuz 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin təqribən 50 faizi üzv dövlətlərin payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yaxın zamanda biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacağıq. Ölkəmiz Azərbaycanı Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı olmuş və bu layihənin maliyyələşdirilməsində iştirak etmişdir. Cənub Qaz Dəhlizi həm Azərbaycanı Aİ bazarına bağlayacaq, həm də Avropaya enerji mənbələrinin şaxələndirilməsi üçün geniş imkanlar yaradacaq”.

### “Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb”

Prezident İlham Əliyev, həmçinin koronavirus pandemiyasına qarşı görülmüş tədbirlərdən və bu sahədə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycanı nümunəvi ölkə adlandırdığını deyib: “Koronavirus pandemiyasına qarşı görülmüş tədbirlər bizə vəziyyəti nəzarətdə, itkiləri isə minimum səviyyədə saxlamağa imkan verib. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Qoşulmama Hərəkatının 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVID-19-a həsr edilmiş onlayn formatda Zirvə Görüşünü təşkil etmişdir. Biz Avropa İttifaqı və Afrika İttifaqının həmin tədbirə qoşulmalarını yüksək qiymətləndiririk. Ali nümayəndə cənab Jozep Borelə videomüraciətinə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, bu, Avropa İttifaqı və Qoşulmama Hərəkatı arasında fəal əməkdaşlığın başlanğıcı olacaqdır. Biz, həmçinin BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi iclasının keçirilməsini təklif etmişik. Azərbaycan pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, ölkəmiz bu günə qədər 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirməyi planlaşdırır”.

### Paşinyan bu dəfə də özünü ifşa etdi...

Lakin Ermənistanını baş naziri Nikol Paşinyan isə əvvəlki sammitlərdə olduğu kimi bk sammitdə də özünü gülünc vəziyyətə saldı. Başqa cür də ola bilməzdi. Çünki qabında olan bu idi. Savadsız, küçədən hakimiyyətə gələnin düşüncəsi də belə olmalı idi. Və həmişə olduğu kimi, bu dəfə də videokonfransda Ermənistanın baş naziri Nikol Paşinyanın erməncə replika atması da gözdən qaçmadı.

Ancaq hər zaman olduğu kimi məntiqsiz, cəfəngiyyatla, yalanla dolu müdaxiləsi, ölkəmizi ittiham etməsi Prezidentimiz tərəfindən kəskin şəkildə cavablandırıldı. Və Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa etdi.

Ən tutarlı məqam isə, Prezident İlham Əliyevin bütün tədbirlərdə həm rus, həm də ingilis dillərində ciddi arqumentlərlə dolu məntiqli çıxışları ilə Nikol Paşinyanın qorxulu kabusuna çevrilməsi idi. Ölkə başçısı bütün mötəbər tədbirlərdə olduğu kimi bu sammitdə də Azərbaycanın haqlı mövqeyini ortaya qoyaraq, Ermənistana qarşı diplomatik hücuma keçməklə onların işğalçı siyasətini ifşa etdi: “Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır”.

Bütün bunların fonunda işğalçı bir dövləti təmsil edən Paşinyan isə çıxışı zamanı bir daha elə işğalçı təfəkküründə və dilində səsləndirdiyi replika onu yenidən Münhen konfransındakı kimi gülüş hədəfinə çevirdi. Və ən gülünc vəziyyətə düşməsi isə əvvəlki Münhen konfransındakı ingilis dili səviyyəsindən heç bir irəliləyişin olmadığını, əksinə kağızdan belə düzgün oxumağı da bacarmadığını bir daha nümayiş etdirdi.

“Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar”

Prezidnt İlham Əliyev sammitdə Ermənistanın baş nazirinə hətta nəyi danışmağın da yolunu belə göstərməsi bir daha onu sübut etdirdi ki, gör erməni xalqı necə bədbəxt xalqdır ki, bu günə kimi, bu işğalçı ölkəyə ağıllı bir adam rəhbərlik etməyib. Və sammitdə Nikol Paşinyanın ermənilərə qarşı “irqçilik siyasəti” aparılmasına qarşı dediyi fikirlərə Azərbpycan Prezidentinin tutarlı cavabı bir daha Ermənistanın baş nazirini gülünc vəziyyətə saldı: “Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim”.

“Şərq Tərəfdaşlığı” ölkələrinin video konfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa etdi. Ermənistan baş naziri tədbirdəki çıxışı zamanı ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunmuş “Naqornıy Karabagh” sözünü işlətdi. Erməncə çıxışında isə “Artsax” sözünü deyir. Bu, bir daha onu göstərir ki, Ermənistanın baş naziri yalnız daxili auditoriyaya hesablanan çıxışlarında beynəlxalq aləmin tanımadığı “Artsax” ifadəsini işlədir. Paşinyanın Sammitdəki çıxışı həm də Ermənistan baş nazirinin “ingilis dili səviyyəsini” göstərdi. O, əvvəlcədən hazırlanan çıxışını kağızdan ingilis dilində oxusa da, sonra fikirlərini bu dildə ifadə edə bilmədi. Çıxış yolu erməni dilində danışmaq idi. Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün təcili ehtiyacların ödənilməsi və təsirin azaldılması məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını da qeyd etdi.

Beləliklə, Ermənistanın baş nazirinin tarixi təhrif edərək, insan hüquqları və demokratiya pərdəsi altında ölkəmizi ittiham etməsi özlərinin bugünədək həyata keçirdikləri işğalçı və şovinist siyasətni ört-basdır etmək üçün uğursuz bir cəhd idi.

Bütün bunlar bir daha sübut etdi ki, Paşinyan beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi.

Bir sözlə, Azərbaycan Prezidenti Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş nazirinin sərsəm və əsassız iddialarına tutarlı faktlarla cavabı bir daha Ermənistan rəhbərliyinə beynəlxalq hüquqdan və tarixdən bir daha əsl dərs verməklə, onu bu dərslərdən nəticə çıxarmağa çağırdı. Və bir daha başa saldı ki, əgər bu dərslərdən nəticə çıxarılmayanda isə 2016-cı ilin aprelindəki kimi hərbi dərs qüvvədə qalır.

**A.SƏMƏDOVA**

# COVID-19: Son bir ayda Azərbaycanda və dünyada baş verənlər



***Azərbaycanda aprel ayının 27-dən etibarən sərt karantin rejimindən yumşaq rejimə keçid edilmiş və bunun ardınca bir sıra iqtisadi sahələrinin fəaliyyəti bərpa edilmişdi. Lakin bütün bu fəaliyyət sahələri və iqtisadi sektorlar müvafiq metodiki göstərişlər əsasında fəaliyyət göstərməli və insanlar tərəfindən sərt karantin dövründə olduğu kimi müəyyən qaydalara riayət edilməli idi. Həmin qaydalara əhalinin müəyyən faizi əməl etmədiyindən, xüsusilə də ictimai iaşə obyektlərində, restoran, kafe və s. digər icimai yerlərdə sosial məsafənin saxlanılmasına riayət edilmədiyindən yoluxma sayı artmağa başladı. SİA sizə aprel ayının 27-dən etibarən ölkədə pandemik vəziyyətin statistikasını təqdim edir.***

Ölkədə 1 aylıq karanin rejimi baş verənlər...

FAKT - 25 mart 2020-ci il tarixində COVID-19 statistikası:

Gün ərzində yeni yoluxma faktları - 6
Ölüm halı - 1
Aktiv koronavirus xəstələrinin sayı - 81
Vəziyyəti ağır olanların sayı - 3
Vəziyyəi orta ağır olanların sayı - 5

İlk gündən bu günə qədər...

İlk dəfə Azərbaycanda koronavirusa yoluxma faktı 28 fevral tarixində qeydə alındı. Xəstələnən şəxs Rusiya Federasiyasının vətəndaşı idi və İran İslam Respublikasından Azərbaycana daxil olarkən onda xəstəliyin əlamətləri müəyyən olunmuşdu. Koronavirusla bağlı bir çox məlumat Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi tərəfindən verilirdi. Lakin, daha sonra sosial şəbəkələr və bir sıra media orqanları tərəfindən verilən yoxlanılmamış informasiyalar yalnız koronavirusla bağlı məlumatları yayan, sistemləşdirilmiş bir strukturun fəaliyyətə başlamasına tələbat yaratdı. Bu məqsədlə 27 fevral 2020-ci il tarixində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı.

Təhlükənin ölkəmizə yaxınlaşdığı İranda virusun peyda olması ilə özünü biruzə verdi. Belə ki, İranda koronavirus yoluxma hallarının artması ilə bağlı 27 fevralda Azərbaycan-İran sərhədində səyyar hospitallar yaradıldı. Lakin, İranda fəlakətin miqyasının genişlənməsi dərhal qonşu dövlətlə sərhədlərin 29 fevral tarixində bağlanmasına səbəb oldu. Azərbaycan vətəndaşları İrandan xüsusi dəhliz vasitəsilə ölkəyə geri qaytarıldı.

Bütün bu qaynar proseslər fonunda Kütləvi İnformasiya Vasitələri də diqqətdən kənar qalmadı. 5 mart tarixli qərara əsasən KİV nümayəndələrinə ümumilikdə maarifləndirici və Operativ Qərargaha istinad edilən məlumatları vermək tövsiyyə olundu. Bununla yanaşı yoxlanılmamış, cəmiyyətdə süni ajiotaj və panika yarata biləcək informasiyaları mediadan uzaq tutmaq tapşırıldı. Bununla da informasiya təhlükəsizliyi təmin olundu.

Eyni zamanda təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi 2 mart tarixli qərara əsasən dayandırıldı. Azərbaycan xalqı bayram əhval-ruhiyyəsi içərisində belə virusla mübarizəsini dayandırmadı. Təbii ki, əhalinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikası ərazisində Novruz Şənlikləri və kütləvi tədbirlər ləğv edildi. Mart ayı ərzində virusla mübarizə gücləndirilmiş şəkildə davam etdirildi. Bir ay ərzində ölkənin hər tərəfində çox ciddi dezinfeksiya işləri aparılmağa başlandı. Azərbaycan ölkədən kənar da koronavirusla özünəməxsus mübarizə apardı. Koronavirusla mübarizəyə qlobal müstəvidə dəstək olmaq üçün Azərbaycan 6 mart tarixində Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar, 7 mart tarixində isə İrana 5 milyon dollar maddi vəsait ayırdı.

Təəssüf ki, 12 mart tarixində ölkədə koronavirusdan ilk ölüm halı qeydə alındı. Bu İrandan qayıdan 1969-cu il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşı idi. 13 mart tarixində Azərbaycanda xüsusi rejim elan edildi. Bütün kütləvi tədbirlər təxirə salındı, kinoteatr, muzey və teatrların, əyləncə mərkəzləri və idman zallarının fəaliyyəti dayandırıldı. Toy məclislərinin keçirilməsi qadağan edildi. Kafe və restoranların, alış-veriş mərkəzlərinin fəaliyyətinə dair xüsusi iş rejimi və qaydalar müəyyənləşdirildi.

Bir çox ölkə ilə gediş-gəlişlər dayandırıldı. Gürcüstan və Rusiya ilə sərhədlər bağlandı. Hətta, çox keçmədi qardaş ölkə Türkiyə ilə quru və hava yolu ilə gediş-gəlişlərə məhdudiyyətlər qoyuldu. Ölkə daxili gediş-gəlişlərə də 17 mart tarixli qərara əsasən məhdudiyyət qoyuldu. Beləliklə, Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna giriş və çıxış məhdudlaşdırıldı.

Azərbaycanda ilk dəfə koronavirus aşkarlanandan, yəni 27 fevral 2020-ci tarixindən bu günə qədər, yəni 25 mart tarixinə qədər inanılmaz şəkildə çecik və sistemli müdafiə tədbirləri həyata keçirildi. Azərbaycan hökuməti və vətəndaşları virusun ciddiyətini lazımı səviyyədə dəyərləndirdi. Bir ay ərzində bununla bağlı yerində və adekvat addımlar atıldı. Dünyanın inkişaf etmiş ölkələri ilə yanaşı və onlarla müqayisədə Azərbaycan bir ay ərzində əhəmiyyətli yol qət etdi.

Dünya ölkələrində vəziyyət necə idi?

Bəzi ölkələr mühim tədbir həyata keçirərkən, bəziləri vəziyyətin əhəmiyyətlilik dərəcəsinə diqqət yetirmədi. Bəzi ölkələrdə vəziyyət cığırından çıxana qədər koronavirus təhlükəsi sakitcə öz fəaliyyətini genişləndirdi. Bu virus ilk dəfə Çinin Uhan əyalətində 2019-cu ilin dekabr ayında ortaya çıxmışdı. Virusun yayılmasına səbəb olan obyekt haqqında müxtəlif fikirlər irəli sürüldü.

Ən çox yoluxma faktı Çində - 81 min 218, İtaliyada - 69 min 176, ABŞ-da - 54 min 941, İspaniyada - 47 min 610, Almaniya - 34 min 9, İranda - 27 min 17, Fransada - 22 min 304, İsveçrədə - 10 min 171, Şimali Koreyada - 9 min 137, Böyük Britaniyada - 8 min 77 nəfər aşkarlandı.

Ən çox ölüm faktı İtaliyada - 6 min 820, İspaniyada - 3 min 484, Çində - 3 min 881, İranda - 2 min 77, Fransada - 1 100, ABŞ-da - 784, Böyük Britaniyada - 422 nəfər qeydə alındı.

Dünya üzrə 434 min 595 nəfər virusa yoluxmuşdu. 19 min 603 nəfər həyatını itirmiş, 111 min 851 nəfər virusdan sağalmışdı.

**Bəs, bu gün?**

Yuxarıda qeyd etdiyimiz ən çox yoluxma faktı qeydə alınan ölkərin çoxunda bu gün mənzərə fərqlidir. Hətta, bir neçəsində kəskin dərəcədə fərqlidir. Azərbaycanda isə vəziyyət tamam fərqlidir.

FAKT - 21 iyun tarixində Azərbaycanda yeni növ koronavirus (COVID-19) statistikası:

Vəziyyət ağır dəyərləndirilə bilər? Xeyir. Vəziyyət ağırdır. Bütün bu rəqəmlərə baxdıqda 2 ay ərzində bir neçə yumşalma qərarına getməklə müşahidə etdiyimiz mənzərə dəhşət doğurur. Mart ayı ərzində ölkədə aparılan profilaktik tədbirlər nəticəsində vəziyyət nəzarət altında idi. Çünki ölkədə vahid vətəndaş həmrəyliyi və məsuliyyəti var idi. Birgə inandığımız və mübarizə apardığımız bir situasiya mövcud idi. İndi də belə bir vəziyyət mövcuddur, lakin, indi çatışmayan cəhət vətəndaş inamı və məsuliyyətidir. Hər şey inanmaqla və nəyisə istəməklə başlayır. Bu gün virusa inanmasaq və ona qalib gəlmək istəməsək heç nə əldə edə bilmərik.

**Bu gün Azərbaycanda vəziyyət...**

25 Mart 2020-ci ildə Azərbaycanla İran arasında sərhədin bağlanması haqda qərarın müddəti aprelin 20-dək uzadıldı. 29 mart saat 00:00-dan etibarən koronavirusla bağlı əlavə tədbirlər haqqında Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına əsasən xüsusi karantin rejimi gücləndirildi. Aprel ayının əvvəllərindən etibarən yoluxma sayında cüzi də olsa artım baş verdi. Lakin, Azərbaycanda koronavirus (COVID-19) pandemiyasına qarşı həyata keçirilən tədbirlər çərçivəsində 5 aprel 2020-ci il saat 00:00-dan etibarən 20 aprel 2020-ci il saat 00:00-dək yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları tam şəkildə dayandırıldı. Aprel ayı ərzində sərt karantin rejiminin tətbiq edilməsi ilə ayın ortalarına qədər artan dinamikada əks dəyişikliklər baş verdi və yoluxma halları azalmağa başladı.

27 aprel tarixində Azərbaycan Respublikasında 33 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınmış, 23 nəfər müalicə olunaraq sağalmış və evə buraxılmışdır. Aktiv xəstələrin sayı isə 494 nəfər idi. Nazirlər Kabinetinin qərarına əsasən 27 aprel 2020-ci il tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilmişdi.

Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 31 may 2020-ci il tarixinədək uzadıldı. Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti 31 may 2020-ci il saat 00:00-dək uzadıldı. Bakı Metropoliteninin fəaliyyətinin 9 may 2020-ci il saat 06.00-dan etibarən bərpa edilməsinə dair qərar verildi.

Lakin, yumşalmaların fonunda yoluxmaların sayı artmaqda davam etdi. 9 may 2020-ci il tarixində yumşalmaların tətbiq edildiyi dövrdə ilk 3 rəqəmli yoluxma faktı müşahidə olundu. Azərbaycan Respublikasında 143 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınmışdı. Bəzi günlərdə bu rəqəm aşağı ensə də, bundan sonra yoluxma statistikasında artım tempi müşahidə olunurdu. 22 may tarixində 106 yoluxma faktı qeydə alındıqdan sonra bu dinamika artan templə davam etdi və 26 may tarixinə qədər gün ərzində 149 yeni yoluxma faktı qeydə alındı. 26 may tarixində 132 yoluxma faktı 31 may tarixinə qədər artan templə 257-ə çatdı. 31 may 248 yoluxma faktı, 1 iyun tarixində 168 yoluxma faktı eydə alındı. Daha sonra isə bir gündə 325 koronavirus infeksiyasına yoluxma faktı qeydə alındı və bu təxirəsalınmaz tədbirləri labüd hala gətirdi.

2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırıldı. İki günlük sərt karantin rejimi elan edildi.

Lakin bütün bunlar məsuliyyəti artırmadı. 9 iyun tarixindən 315 yoluxma faktı qeydə alındıqdan sonra, 11 iyun tarixi daxil olmaqla bir gündə 352 nəfər virusa yoluxdu. Ümumi yoluxma sayı 8882 idi. 15 iyun tarixində ümumi yoluxmaların sayı 10 mini ötdü. 19 iyun tarixində gündəlik yoluxma sayı 400-ü keçərək 438 oldu.

Bu dövr ərzində Nazirlər Kainetinin sərtləşdirici qərarları oldu. Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 1 iyul 2020-ci il tarixinədək uzadıldı. Daha sonra isə Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 1 avqust 2020-ci il tarixinədək uzadıldı.

Mart və aprel ayları ərzində əldə etdiyimiz nəticələr və COVID-19 statistikasında müsbət irəliləyiş davam etdirilsə idi, bu 2 ay ərazisində vəndaşların göstərdiyi həmrəylik və məsuliyyət eyni qalsa idi, bu gün koronavirusa qalib gəlmiş ölkələrdən biri ola bilərdik. Bu bacarmış ölkələr mövcuddur.

Bu gün dünyada vəziyyət...

Dünya üzrə 26 ölkədə bütün yoluxmuş şəxslər virusdan sağalmış və aktiv yoluxma faktı qeydə alınmamışdır.

Bu gün ən çox virusa yoluxma faktı qeydə alınan 30 ölkə:

ABŞ - 2 milyon 356 min 715,
Braziliya - 1 milyon 86 min 990,
Rusiya - 584 min 680,
Hindistan - 426 min 910,
Böyük Britaniya - 304 min 331,
İspaniya 293 min 352,
Peru - 254 min 936,
Çili - 242 min 355,
İtaliya - 238 min 499,
İran - 204 min 952,
Almaniya - 191 min 575,
Türkiyə - 187 min 685,
Pakistan - 181 min 88,
Meksika - 180 min 545,
Fransa - 160 min 377,
Səudiyyə Ərəbistanı - 157 min 612,
Banqladeş - 112 min 306,
Kanada - 101 min 337,
Cənubi Afrika - 97 min 302,
Qətər - 87 min 369,
Çin - 83 min 396,
Kolumbia - 68 min 652,
Belçika - 60 min 550,
Belarusiya - 58 min 505,
İsveç - 56 min 43,
Misir - 55 min 233,
Ekvador - 50 min 640,
Hollandiya - 49 min 593,
İndoneziya - 45 min 891,
Birləşmiş Ərəb Əmirlikləri - 44 min 925 nəfərdir.

Ən çox ölüm faktı -
ABŞ - 122 min 248 nəfər,
Braziliya - 50 min 658 nəfər,
Böyük Britaniya - 42 min 632,
İtaliya - 34 min 634 nəfər,
Fransa - 29 min 640 nəfər,
İspaniya - 28 min 323 nəfər,
Meksika - 21 min 825 nəfər,
Hindistan - 13 min 703 nəfər,
Belçika - 9 min 696 nəfər,
İran - 9 min 693 nəfər qeydə alınıb.

Mart ayının statistikasına əsasən Çin birinci yerdə idisə, bu gün Çin 21-ci yerdədir. Son 24 saat ərzində isə Çində cəmi 18 nəfər virusa yoluxub. Siyahıda 2-ci olan İtaliyada isə bu gün 9-cu sıradadır və son 24 saat ərzində yoluxma faktı ümumiyyətlə qeydə alınmayıb. 3-cü yerdə olan ABŞ-da isə vətəndaş inamsızlığı və müəyyən qədər hadisələrə gec reaksiya verilməsi ölkəni mənfi dinamika üzrə 1-ci sıraya qaldırdı. Lakin bütün bunlara baxmayaraq son 24 saat ərzində 58 nəfər virusa yoluxub. Mart ayının sonlarında 5-ci yerdə olan və gündəlik yoluxma sayı 200-dən çox olan İspaniya bu gün 6-cı yerdədəir və son 24 saat ərzində yoluxma faktı qeydə alınmayıb. Almaniya isə 11-ci yerdədir və son sutka ərzində yoluxma sayı qeydə alınmayıb.

Dünya üzrə yeni növ koronavirusa yoluxanların ümumi sayı 9 milyon 51 min 949 nəfərdir. Bu günə qədər virusdan 470 min 822 nəfər dünyasını dəyişib. Virusa yoluxmuş 4 milyon 842 min şəxs isə virusdan sağalıb. Hazırda 3 milyon 739 min min şəxs aktiv COVID-19 xəstəsidir. Yoluxanlardan 99 faizi yəni 3 milyon 684 min nəfərin vəziyyəti orta stabildir, 1 faizinin, yəni, 54 min 736 nəfərin vəziyyəti isə ağırdır. Ən çox yoluxma bu günə qədər bir gündə, 19 iyun tarixində 180 min 874 nəfər kimi qeydə alınıb. Ən çox ölüm vaktı isə aprel ayının 17-si 8 min 435 nəfər kimi qeydə alınmışdır.

***Nigar Məmmədova***

# "Yürütdüyünüz müdrik siyasəti, qəbul etdiyiniz qətiyyətli qərarları ürəkdən dəstəkləyirik"

## *Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanmaqda davam edir*

***Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. Respublikamızın bütün guşələrindən vətəndaşlar dövlətimizin başçısının diqqət və qayğısını yüksək qiymətləndirirlər.***



AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.

Salyan rayonunun Arbatan kəndindən Sevinc Ələkbərli, Şükufə Babayeva, Əfruzə İsayeva, İradə Rzayeva və Vüsalə Abuşova yazırlar: "Möhtərəm cənab Prezident, bu gün ölkəmiz Sizin qabaqlayıcı tədbirləriniz və məqsədyönlü addımlarınız sayəsində dünyanın bir çox ölkələri ilə müqayisədə koronavirusa qarşı az itki ilə mübarizə aparmaqdadır. Bu ağır günlərdə aztəminatlı ailələrə diqqət və qayğınız, onlara göndərilən maddi və ərzaq yardımları və ölkənin birinci xanımı Mehriban Əliyevanın da dəstəyi bir daha sübut etdi ki, Siz hər zaman xalqın yanındasınız. Bu proseslərin gedişi ərəfəsində bütün ölkədə olduğu kimi, bizim rayonda da tikinti-quruculuq, abadlıq işləri aparılır. Rayonumuzda illərdir təmirsiz olan doğum evində aparılan abadlıq işləri bizim üçün böyük bir hədiyyə oldu. Yaşadığımız Arbatan kəndinə Sizin göstərişiniz əsasında çox gözəl yeni asfalt çəkilməsi rayona gediş-gəlişimizi asanlaşdırıb. Bizim üçün ən sevindirici hal isə 1964-cü ildə tikilib istifadəyə verilən kənd məktəbinin Heydər Əliyev Fondu tərəfindən əsaslı təmirinə başlanılmasıdır. Möhtərəm cənab Prezident, bu işlərə görə biz - Arbatan kənd sakinləri Sizə öz təşəkkür məktubumuzu ünvanlamağı qərara aldıq. Biz bir daha əyani şahidi olduq ki, Siz bu çətin günlərdə belə xalqın üzərindən diqqət və qayğınızı əskik etmirsiniz. Sizə bütün kənd sakinləri adından minnətdarlığımızı çatdırırıq. Sizə sevgimiz və hörmətimiz sonsuzdur. Allah Sizi və ailənizi daim qorusun, ucaltsın, ölkəmizi çiçəkləndirsin, uğurlarınızı əbədi etsin. Biz Sizinlə birlikdə güclüyük!".

Saatlı rayonunun Əhmədbəyli kəndindən ikinci qrup əlil Bayraməli Əliyev: "Hörmətli cənab Prezident, mən həmişə Sizin fəaliyyətinizi dəstəkləyən bir Azərbaycan vətəndaşıyam. Siz bütün fəaliyyətinizi vətəndaşların rifahının yaxşılaşdırılmasına həsr etmisiniz. COVID-19 pandemiyasına qarşı səmərəli və düzgün siyasətiniz bunu bir daha sübut etdi. Hazırda dünyanı iqtisadi böhran bürümüşdür. Amma Siz öz müdrik siyasətinizlə Azərbaycanı bu bəladan qorumaqdasınız. Bu çətin vəziyyətdə Siz regionlara səfərlər edir, xalqın firavan yaşayışı üçün yeni obyektlər açır, videokonfranslar və videogörüşlər vasitəsilə mühüm məsələləri müzakirə edir, öz münasibətinizi bildirirsiniz. Böyük siyasətiniz, yüksək zəkanız və uzaqgörənliyiniz sayəsində buna nail olursunuz. Cənab Prezident, xalqımıza göstərdiyiniz bu böyük və məsuliyyətli əməyinizə görə Sizə öz adımdan və ailəmin adından təşəkkür edirəm. Qoy Ulu Tanrı Sizə hər zaman kömək olsun!".

Bakının Pirallahı rayonundan şəhid anası Xatirə Əliyeva: "Hörmətli cənab Prezident, şəhid ailələrinə, Qarabağ qazilərinə, məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğı bizim həyatımızda misilsiz rol oynayır. Sizin bu qayğıkeş münasibətinizdən digərləri ibrət götürürlər. Qarşılaşdığımız çətinliklərin aradan qaldırılması ilə əlaqədar dövlət qurumlarına ünvanladığımız müraciətlərə həssaslıqla yanaşılır, lazımi tədbirlər görülür. Cənab Prezident, bütün bunlara görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən Vətən uğrunda bir oğul itirsəm də, əvəzində minlərlə oğul qazanmışam və bununla fəxr edirəm. Başda Siz olmaqla, şəhid ruhuna və şəhid anasına böyük hörmət və ehtiram bəsləyən hər kəsə alqış və dua edirəm. Ömrünüz uzun olsun!".

Bakının Nizami rayonundan Yusif Hüseynov: "Möhtərəm Prezident, mən Qarabağ müharibəsi veteranıyam. Həm Qarabağ müharibəsi veteranları və əlillərinə, həm də şəhid ailələrinə göstərilən qayğıya, onların problemlərinin həllinə görə Sizə və Mehriban xanıma bu kateqoriyalardan olan bütün insanlar adından təşəkkürümü bildirirəm. Sizin Fərman və sərəncamlarınızdan irəli gələn tapşırıqların icrası nəticəsində həyat şəraitimiz yaxşılaşmış, narahatlıq doğuran bir sıra məsələlər öz həllini tapmışdır. Qarabağ qaziləri və şəhid ailələri Sizi özlərinin ən böyük himayədarı və dostu bilirlər. Allah Sizi qorusun!".

Qubanın Çartəpə kəndindən Seyidbala Nəcəfov: "Hörmətli cənab Prezident, mən Quba rayonunun Çartəpə kəndində yaşayan 82 yaşlı təqaüdçüyəm. Yaşımın bu çağında doğma kəndimi abad, həyatımı firavan görmək mənə çox xoş gəlir. Həyat eşqim artır, ilhamlanıram. Kəndimizdə son illər ərzində xeyli təmir-tikinti işləri görülmüşdür. Elə rayon mərkəzindən kəndə qədər uzanan asfalt yol nəyə desəniz dəyər. Əvvəllər rayon mərkəzinə bir saata güc-bəla ilə çatırdıq. İndi isə bunun üçün cəmi 15 dəqiqə kifayət edir. Qonşu rayon olan Qusara da gediş-gəlişimiz asanlaşmışdır. Hazırda kəndə içməli su xəttinin çəkilməsi istiqamətində işlər gedir. Möhtərəm Prezident, ürəyimdən gələn bu sözləri Sizə çatdırmağı özümə borc bildim. Sizə dərin təşəkkürümü bildirirəm".

Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsindən şəhid anası Xırda Rzayeva: "Hörmətli cənab Prezident, Siz həmişə biz yaşlıları düşünürsünüz. Yaşayış şəraitimiz yaxşılaşsın deyə təqaüdlərimizi artırırsınız. Bu, bizi sevindirir. Buna görə Sizə təşəkkür edirəm. Çox sağ olun. Sizi bir Prezident, bir övlad kimi sevirik. Sizə arxalanırıq, Sizə güvənirik. Ümummilli liderimiz Heydər Əliyevin yolunu layiqincə davam etdirirsiniz. Siz mütəmadi olaraq neçə-neçə şəhid ailəsinə, Qarabağ qazisinə, aztəminatlı kasıb ailələrə öz humanist sərəncamlarınızla xoşbəxtlik bəxş edirsiniz. Mənim mənzillə təmin edilməyim bir şəhid anasını sevindirmək, ən azı şəhidlərin ruhu qarşısında böyük ehtiramdır. Bu sevinc ailəmiz üçün necə bir şirin töhfədir, bir Allah bilir. Mənim Sizə təşəkkürüm sonsuzdur. Allah Sizi qorusun!".

İmişlinin Ağamalılar kəndindən Gülnar Sadıqova: "Möhtərəm cənab Prezident, Sizin müdrikliyiniz və gördüyünüz təqdirəlayiq işlər sayəsində ölkəmiz son illər ərzində sürətlə inkişaf etmiş və daha da gözəlləşmişdir. Üzləşdiyimiz taleyüklü məsələlərdə və keşməkeşli həyat yollarında xalqımız Sizin həlledici addımlarınızla nicat tapıb, min bir çətinliyə sinə gərib. Son vaxtlar dünyaya meydan oxuyan pandemiya dövründə biz bir daha bunun şahidi olduq. Əvvəlki illərdə çoxlu sayda tibb müəssisələrinin tikilməsi və ya təmir olunması, ölkəmizin maddi ehtiyatlarının formalaşdırılması, texniki imkanların genişləndirilməsi bu çətin məqamda köməyimizə çatdı. Bax budur uzaqgörənlik. Allah Sizin kölgənizi xalqımızın başı üzərindən əskik etməsin, cənab Prezident! Sizin işlərinizi görənlər görür və qiymətləndirir, görməyənlərin gözünə isə Allahdan nur arzulayırıq. Bir də onu arzulayırıq ki, Allah bu pandemiya bəlasını tezliklə ölkəmizin üzərindən götürsün, Azərbaycan yenidən əvvəlki günlərinə qayıtsın!".

Ağdam rayonunun 689 saylı qəsəbəsindən Nicat Əhmədov: "Möhtərəm cənab Prezident, bu gün bəşəriyyətin böyük sınaqla üzləşdiyi çətin dövrdə, koronavirus pandemiyasının tüğyan etdiyi bir vaxtda güclü mübarizə aparılmasına baxmayaraq, dünyanın bir sıra yerlərində, o cümlədən inkişaf etmiş Avropa ölkələrində, Amerika qitəsi ölkələrində hər gün yüzlərlə insan bu dəhşətli xəstəliyin qurbanına çevrilir. Lakin koronavirus infeksiyasının qlobal təhlükəyə çevrilməyə başladığı ilk gündən etibarən Sizin qəbul etdiyiniz qərarlar və qabaqlayıcı tədbirlər pandemiyanın ölkəmizdə geniş yayılaraq kütləvi insan ölümünə səbəb olmasının qarşısını aldı. Sizin çevik və yüksək idarəetmə bacarığınız sayəsində infeksiyaya yoluxmaların sayı aşağı həddə saxlanılmaqdadır. Cənab Prezident, bu xeyirxah işinizə görə Sizə uzun ömür, cansağlığı arzulayır, işlərinizdə yeni uğurlar diləyirəm".

Siyəzən rayonundan Nailə Quliyevanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, ölkəmizin sürətli inkişafı, iqtisadi sahənin tərəqqisi Azərbaycanda mədəniyyət və turizm mühitinin də yaxşılaşdırılmasına şərait yaratmışdır. Bu sahəyə göstərilən dövlət qayğısının daha bir nümunəsi isə "Beşbarmaq Dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında 8

# “Yürütdüyünüz müdrik siyasəti, qəbul etdiyiniz qətiyyətli qərarları ürəkdən dəstəkləyirik”

## *Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanmaqda davam edir*



iyun 2020-ci ilin tarixində imzaladığınız Sərəncam oldu. Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, adət-ənənələrinin qədim köklərə malik olduğunu sübut edən bu tarix-təbiət abidəsinin diqqətinizi cəlb edərək Dövlət Qoruğu elan edilməsi xəbəri Siyəzən sakini və tarix müəllimi kimi məni çox sevindirdi. Dünyanın ən qədim insan məskənlərindən, bəşər sivilizasiyanın ilk beşiklərindən olan Azərbaycan daim məşhur səyyahların diqqətini özünə cəlb etmişdir. Azərbaycan dövləti tarixi dəyərlərə söykənən təməl üzərində quruldu. Son illərdə isə iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Sizin rəhbərliyinizlə ölkədə aparılan iqtisadi islahatların nəticəsində ölkəmiz dünyada tanınmış, regionda lider dövlətə çevrilmişdir. Biz gələcəyə nikbinliklə baxırıq, gələcəyimizin daha da gözəl olacağını görürük. İnanırıq ki, imzaladığınız bu Sərəncam da ölkəmizdə turizmin inkişafına öz töhfəsini verəcəkdir. Cənab Prezident, yeritdiyiniz müdrik siyasəti, qəbul etdiyiniz qətiyyətli qərarları ürəkdən dəstəkləyirəm və Sizə minnətdarlığımı bildirirəm”.

Bakının Yasamal rayonundan Taleh Mansurov: “Hörmətli cənab Prezident, bir gənc olaraq Sizə minnətdarlığı özümə həm vətəndaşlıq, həm də vicdan borcu biləroк bu təşəkkür məktubunu Sizə ünvanlayıram. Hörmətli Ali Baş Komandan, dünyamız həm siyasi, həm iqtisadi, həm də səhiyyə cəhətdən ağır sınaqdan keçir. Artıq məlum məsələdir ki, dünyada supergüc hesab edilən ölkələrdə pandemiyanın ağır fəlakətləri üzə çıxmağa başlayır. Dünyanın bu mənzərəsi qarşısında ölkəmizdəki stabillik, sosial yardımlar Azərbaycanın bu pandemiyadan ən az zərərlə çıxacağının göstəricisidir. Bu gücün əsas səbəbi Sizin xalqımıza olan sevginiz, güclü iradənizdir. Danılmaz faktdır ki, Siz və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva dövlətimiz və xalqımız üçün bütün gücünüzlə çalışırsınız. Mən də Azərbaycan gənci olaraq daim siyasətinizi dəstəkləyir, Vətənim, dövlətim üçün layiqli gənc olmağa çalışıram. Tanrı Sizi qorusun!”.

Füzuli rayon Üçbulaq kənd tam orta məktəbinin müəllimi Gülü Mütəllimli: “Hörmətli cənab Prezident, bu məktubu yazmaqla Sizə təşəkkürümü bildirirəm. Bunu özümə vətəndaşlıq borcu hesab edirəm. Bütün dünyanı cənginə alan COVID-19 pandemiyası dövründə etdiyiniz “Biz birlikdə güclüyük!” çağırışınız hər bir vətəndaş kimi məni də qürurlandırdı və ruhlandırdı. Əminik ki, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın köməyi sayəsində biz bu pandemiyaya qalib gələcəyik. COVID-19 pandemiyasına qarşı gördüyünüz işlərə, qəbul etdiyiniz qərarlara, vətəndaşlarımızı qorumaq istiqamətində fəaliyyətinizə, həmçinin məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə Füzuli rayon Üçbulaq kənd tam orta məktəbinin müəllim kollektivi adından təşəkkürümü bildirirəm. Biz Sizinlə güclüyük, əziz Prezidentimiz! Sizə uzun ömür, cansağlığı və gördüyünüz hər bir işdə uğur arzu edirəm. Allahın nəzəri daim üzərinizdə olsun!”.

Ağcabədi rayonundan Aytəkin Mamedova: “Hörmətli cənab Prezident, mən Sizə Ağcabədidən yazıram. Sadə bir vətəndaşam. Vətənə layiqli övladlar yetişdirməyi bir vətəndaşlıq borcu hesab edirəm. Necə ki, Siz gördüyünüz işləri təkcə vəzifə borcu kimi yox, həm də vətəndaşlıq borcu kimi həyata keçirirsiniz. Sizə sevgimiz sonsuzdur. Biz anaların istədiyi əmin-amanlıq, sakitlikdir ki, övladlarımızı qorxusuz, sevgi ilə böyüdə bilək. Siz bunu bizə vermisiniz. Ölkəmiz gündən-günə abadlaşır, bütün sahələrdə inkişaf gedir. İnanırıq ki, işğal altında olan torpaqlarımızı da qan tökülmədən, can alınmadan azad etməyə nail olacaqsınız. Sizə cansağlığı, uzun ömür arzulayırıq”.

Hacıqabul rayonundan Orxan Vəliyev: “Hörmətli cənab Prezident, Sizə öz adımdan və Hacıqabul rayon sakinləri adından təşəkkürümü bildirmək istəyirəm. Bütün dünyanı cənginə alan COVID-19 virusuna qarşı apardığınız müdrik işlər sayəsində Azərbaycan yoluxma sayının az olduğu və minimum zərər çəkmiş ölkələr sırasında yer alır. Bu ağır və çətin vəziyyətdə Azərbaycan xalqının yanında olaraq maddi və mənəvi kömək etdiniz. Ən başlıcası xalqı düşünmək, onun mənafeyini hər şeydən üstün tutmaq böyük diqqət və fədakarlıqdır. Cənab Prezident, xalqa olan bu diqqətinizə və rayonumuzda son illərdə görülən işlərə görə Sizə bir daha təşəkkür edir, gələcək işlərinizdə yeni uğurlar arzulayıram”.

Şirvan şəhərindən Şahsənəm Xudayeva: Hörmətli cənab Prezident, mən Şirvan şəhər sakini olaraq Sizin bu çətin günlərdə atdığınız addımları yaxından izləyirəm. Siz Ulu Öndərin təməlini qoyduğu müstəqil Azərbaycan dövlətinə uğurla rəhbərlik edib, onu zirvələrə doğru aparırsınız. Siz xalqımız üçün bu ağır dövrdə böyük fədakarlıq göstərərək insanların həm maddi, həm də mənəvi ehtiyaclarının ödənilməsi, sağlamlığının qorunması istiqamətində genişmiqyaslı işlər görürsünüz. İnanıram ki, pandemiya ilə mübarizə sahəsində həyata keçirdiyiniz bütün tədbirlər müsbət nəticəsini verəcək və biz birlikdə infeksiyaya qalib gələcəyik. Əziz Prezidentimiz, xalqımızın sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə öz adımdan və bütün şirvanlılar adından Sizə dərin minnətdarlığımı bildirirəm. Biz şirvanlılar dövlətçiliyimizin inkişafı uğrunda apardığınız mübarizədə daim Sizi dəstəkləyirik və Sizinləyik. Müstəqil, güclü Azərbaycan naminə gördüyünüz işlərdə Sizə uğurlar arzulayıram”.

Şirvan şəhərinin daha bir sakini Elçin Həsənov dövlətimizin başçısına minnətdarlığını bu sözlərlə ifadə edir: “Hörmətli cənab Prezident, mən azərbaycanlı olmağımla fəxr edirəm. Azərbaycan mənim Vətənim, ana yurdumdur. Azərbaycanda yaşadığım üçün sevinc və qürur hissi keçirirəm. Amma ən böyük fəxrim Sizsiniz, hörmətli Prezidentim. Sizin öz vətəndaşlarınıza göstərdiyiniz qayğı məni qürurlandırır. Bütün dünyanın iqtisadi böhran içində çapaladığı bir dövrdə Sizin atdığınız addımlar, o cümlədən iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq “Əhmədli” yarımstansiyasının açılışı xalqımızın rifahı, onun xoşbəxt gələcəyi naminə edilir. Buna görə Sizə minnətdaram. Var olun! Tanrı Sizi qorusun!”.

Ağdam rayonunun Quzanlı qəsəbəsindən Elmir Teymurov: “Hörmətli cənab Prezident, mən bir Azərbaycan gənci kimi bu məktubu Sizə böyük qürur hissi və sevgi ilə yazıram. Dünyada, eləcə də Azərbaycanda gedən prosesləri, fəaliyyətinizi, Azərbaycan xalqına göstərdiyiniz əvəzolunmaz xidmətlərinizi yaxından izləyir, gənc nəslə verdiyiniz xüsusi önəmi yüksək qiymətləndirirəm. Dünyanın koronavirus adlı görünməz düşmənlə savaşdığı bir dövrdə ölkəmizin dünyanın inkişaf etmiş ölkələrinə nisbətən daha az itki verməsi məhz Sizin tərəfinizdən həyata keçirilən çox ciddi, davamlı və təsirli tədbirlər nəticəsində olmuşdur. Azərbaycan xalqı Sizin məhəbbətinizi daim hiss edib və Sizə daim dəstək olmuşdur. Vəziyyətin belə ağır vaxtında Sizin Ağdama olan səfəriniz bizə sevinc bəxş etdi. Bütün ağdamlılar, qarabağlılar bu səfərinizi yüksək qiymətləndirdi və bir daha tək olmadığımızı gördük. Xalq pandemiya dövründə özünün tək olmadığını hiss etdi. Sizin hər bir müraciətiniz Azərbaycan xalqını bu virusla mübarizədə daha diqqətli olmağa çağırdı. Xoşbəxt xalqıq ki, Sizin kimi Prezidentimiz var. Sizə dərin təşəkkürümü bildirirəm. Gənc nəsil Sizinlədir. Sizin arxanızda Sizi sevən Azərbaycan xalqı dayanıb və dayanacaq da. Cənab Prezident, bu gücü bizə verən də Sizin xalqla olan sıx, səmimi münasibətinizdir. Sizə işlərinizdə daha böyük uğurlar arzulayıram”.

# Ağalar Vəliyev: "Azərbaycan Prezidenti ölkəmizin maraqlarını bütün mötəbər tədbirlərdə yüksək səviyyədə müdafiə edir"



***"Bu günlərdə Avropa İttifaqı Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammiti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dərin məzmunlu nitqi ilə yadda qalan oldu". SİA-nın verdiyi məlumata görə, dövlət başçısının çıxışındakı mühüm məqamlara istinadən Sammitdə müzakirə olunan məsələlərlə bağlı mülahizələrini bölüşən Milli Məclisin deputatı Ağalar Vəliyev bildirib ki, Avropa İttifaqı ölkələri ilə əməkdaşlıq Azərbaycan dövlətinin xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edir və ölkəmiz Şərq tərəfdaşlığı üçün həyati əhəmiyyət daşıyan mühüm strateji mərkəzdir.***

Deputat qeyd edib ki, Azərbaycanla Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədin imzalanması təsadüfi deyil: "Dövlət Başçısının Sammitdə vurğuladığı kimi, hazırda Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişinə dair danışıqlar yekun mərhələsindədir və sazişin mətninin 90 faizi artıq razılaşdırılıb. Ona görə də belə bir mərhələdə sammitin keçirilməsi Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafı baxımından çox əhəmiyyətlidir".

Millət vəkili bildirib ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır və yaxın zamanda ölkəmiz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz edəcək: "Bir sözlə, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin gözəl perspektivləri vardır. 2009-cu ildə əsası qoyulan "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində iqtisadiyyatın ən müxtəlif sahələrində əməkdaşlıq yaradılıb və uğurlu nəticələrə imza atılıb. Ötən 11 il ərzində təşkilat dövlətimizin iqtisadiyyatına böyük həcmdə sərmayələr yatırıb və ölkəmizin əsas ticarət tərəfdaşı olub.

Eyni zamanda Azərbaycan Şərq Tərəfdaşlığı proqramının 6 üzv ölkəsinin içərisində Avropa İttifaqı ilə həyata keçirilən tvinninq layihələrinin sayına görə lider mövqeyində dayanır. Bu da onu göstərir ki, Avropa İttifaqı ilə Azərbaycan arasında sıx münasibətlər qurulub və Şərq Tərəfdaşlığı çərçivəsində ölkəmiz qurumla əməkdaşlıqda yüksək nailiyyətlər qazanıb".

Deputat vurğulayıb ki, məlum işğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycanın son 16 ildə davamlı sosial-iqtisadi inkişafı təmin olunub, ümumi daxili məhsulumuz 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib: "Bu illər ərzində ticarətimizin təqribən 50 faizi əsas tərəfdaş kimi Avropa İttifaqına üzv olan dövlətlərin payına düşüb. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yaxın zamanda biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacağıq.

Təbiidir ki, Avropada enerji əməkdaşlığı, təhlükəsizliyi və şaxələndirməsi layihəsi kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin İttifaq bazarlarına inteqrasiya olunacaq 3500 kilometrlik boru kəmərinin təşəbbüskarı və maliyyə təminatçısı ölkəmiz olub".

Ağalar Vəliyev bildirib ki, son ayların qlobal reallığı olan koronavirus pandemiyasına qarşı dövlət başçısının bilavasitə rəhbərliyi altında ölkəmizdə görülmüş tədbirlər vəziyyəti nəzarətdə saxlamağa və itkiləri minimum səviyyəyə endirməyə imkan verib: "Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Qoşulmama Hərəkatının 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVID-19-a həsr edilmiş onlayn formatda Zirvə görüşünü təşkil edib".

Milli Məclisin üzvü həmçinin vurğulayıb ki, bir sıra mötəbər beynəlxalq tədbirlərdə olduğu kimi, cənab Prezident Sammitdə Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirdiyini və onun etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini bir daha bəyan edib: "BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb etsə də işğalçı ölkə bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Ölkə rəhbərinin təbirincə ifadə etsək, danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksinə olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır".

Deputat əlavə edib ki, dünya birliyi, Azərbaycan və Ermənistan ictimaiyyəti Şərq Tərəfdaşlığı ölkələrinin Sammitində Nikol Paşinyanın növbəti dəfə özünü biabır etməsinin şahidi olub: "Ermənistan baş nazirinin çıxışı və davranışları bir daha göstərdi ki, o siyasətdə naşı bir adamdır. Hər kəs aydın şəkildə gördü ki, Paşinyanın populist çıxışı Ermənistandakı vəziyyət nəzərə alınaraq daxili auditoriyaya hesablanıb. Lakin siyasi və diplomatik bacarığı olmadığı üçün kobud səhvlərə yol verirdi. Əvvəla onun tədbirdəki çıxışı Paşinyanın dil biliyinin bərbad olduğunu göstərirdi. O, qabaqcadan hazırlanan çıxışını ingilis dilində oxusa da, növbəti fikirlərini erməni dilində ifadə eləməyə çalışdı. Ermənistan baş naziri Sammitdə çıxışı zamanı ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunan "Naqornıy Karabagh" sözünü işlədir, halbuki ermənicə çıxışında "Artsax" sözünü dilə gətirir. Bu epizodlar bir daha sübut edir ki, Ermənistan dünyanın 30-a yaxın ölkəsinə, 3 beynəlxalq təşkilatına yardım edən, Avropa İttifaqının rəhbərliyi tərəfindən ciddi tərəfdaş kimi qəbul edilən Azərbaycanla müqayisədə zəif və acizdir. Paşinyan replika atdığı zaman isə özünü və erməni təbliğatını tamamilə ifşa etmiş oldu. Onun Ramil Səfərovla bağlı məsələdə diqqəti yayındırmaq cəhdi də puça çıxdı. Bununla da Paşinyan beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi".

Milli Məclisin deputatı Ağalar Vəliyev vurğulayıb ki, Şərq Tərəfdaşlığı ölkələrinin Sammiti Prezident İlham Əliyevin Azərbaycanın maraqlarını və ədalətli mövqeyini bütün mötəbər tədbirlərdə yüksək səviyyədə müdafiə etdiyini bir daha nümayiş etdirdi.

# QMİ: Bu il Həcc ziyarəti baş tutmayacaq



***Bu il Azərbaycandan Həcc ziyarətinin baş tutması qeyri-mümkün görünür. Bu barədə SİA-ya Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) məlumat verilib. Qeyd olunub ki, hələ ki, Səudiyyə Ərəbistanından Həcc ziyarəti ilə bağlı hər hansı bildiriş gəlməyib, ancaq çox güman ki, "yox" cavabı veriləcək. Digər tərəfdən burada vaxt məsələsinin də mühüm rol oynadığı bildirilib.***

Vurğulanıb ki, Həcc ziyarəti müəyyən prosedur əsasında baş tutur, yəni
sənəd qəbulu, aviareyslərin təşkili və s. Bütün bunlar vaxt tələb edən məsə-
lələrdir. Əgər iyun ayının sonuna qədər sənəd qəbulu bərpa olunsa idi, Həcc
ziyarəti baş tuta bilərdi. Lakin hazırda koronavirus səbəbindən həm ölkəmiz-
də, həm də Səudiyyə Ərəbistanında karantin rejimi tətbiq olunur və belə bir
şəraitdə bu prosedurların həyata keçirilməsi mümkünsüzdür. Həcc ziyarəti
isə Qurban bayramı zamanı baş tutmalıdır.

Qeyd edək ki, Azərbaycanda karantin rejimi tətbiq olunana qədər 250-
dən çox insan Həcc ziyarətinə getmək üçün müraciət edib. Martın 24-dən
Həcc ziyarətinə sənəd qəbul edilmir. Ümumilikdə isə Həcc ziyarətinə sənəd
qəbuluna yanvarın 27-də başlanmışdı. Ziyarətin qiyməti 4 490 dollardır. Ötən
il isə bu məbləğ 4 285 dollar olub. Builki qiymət artımı hotel xidmətlərinin ba-
halaşması və viza rüsumunun tətbiq edilməsi ilə bağlıdır.

## TƏBİB-dən açıqlama: Məsələ araşdırılır

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) sosial şəbəkələrdə 1 saylı Kliniki Tibbi Mərkəzdə ("Semaşko") koronavirusdan müalicə alan xəstələrə lazımi diqqətin yetirilməməsi ilə bağlı yayılan görüntülərə münasibət bildirib. TƏBİB-in mətbuat katibi Rəvanə Əliyeva bildirib ki, məsələ araşdırılır və lazımi tədbirlər görüləcək. Məlumat üçün bildirək ki, yayılan görüntülərdə Mərkəzdə müalicə alan bir şəxs onlara gün ərzində cəmi bir ədəd üstü çin dilində yazılı olan adi qrip əleyhinə olan dərman preparatı verildiyini və həkimlərin maraqlanmadığını iddia edir. Xəstə bildirir ki, bütün dərmanları öz vəsaiti hesabına alıb. O, vəziyyətin gərgin olduğunu və mərkəzdə heç bir aidiyyəti üzrə həkim görmədiyini qeyd edir.

## "Cənab Prezidentin strateji uzaqgörənliyi özünü göstərir"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətin, dövlətimizin ümumiyyətlə Avropaya inteqrasiya yolunda ən əmin addımlarla irəliləməsini təmin edir". Bu sözləri SİA-ya müsahibəsində siyasi şərhçi Azər Həsrət deyib. Siyasi şərhçinin sözlərinə görə, bu sadəcə ictimai-siyasi münasibətlərdən ibarət deyil və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, özəlliklə də Avropa insanının indiki qarışıq dünyada, xüsusən də qaz təchizatının yüksək səviyyədə təmin edilməsi baxımından Azərbaycan çox böyük, nəhəng layihələrə imza atır.



"Azərbaycan qazının Avropaya nəqli istiqamətində atılan addım nəinki bizim yüzilliyin, ümumiyyətlə bundan sonrakı yüzilliklərin də müzakirə mövzusu olacaq. Bilirik ki, Avropa Birliyi ölkələri, ümumiyyətlə Avropa özəlliklə də Rusiyadan asılılığı azaltmağa çalışır, eyni zamanda enerji daşıyıcılarının alternativlərinin imkanlarını götür-qoy edir. Yəni, mümkün qədər çox alternativlərdən enerji daşıyıcıları almağa çalışır ki, öz asılılığını azaltmış olsun. Bu arada Azərbaycan da o alternativlərdən birini, çox ciddisini təklif edib və həmin alternativ də artıq bu il başa çatmaq üzrədir ki, Avropa Azərbaycan qazını rahat bir şəkildə alacaq. Yəni, bu nə verəcək? Qarşılıqlı şəkildə həm Avropaya, həm də Azərbaycana çox ciddi dividentlər gətirəcək. Birincisi, Avropa alternativ mənbədən qaz təchizatını təmin etmiş olacaq, ikinci bir tərəfdən də Avropa Birliyi Azərbaycanla ikitərəfli iş birliyini daha bir real müstəvidə dünyaya göstərmiş olacaq. İndi belə bir məsələ ortaya çıxır ki, Azərbaycan ciddi, sözübütöv, etibarlı tərəfdaş olmasaydı, Avropa Birliyi bu iş birliyinə, özü də çox nəhəng maliyyə vəsaiti tələb edən belə bir iş birliyinə gedərdimi? Təbii ki, getməzdi. Azərbaycan bir dövlət olaraq, onun lideri də, Cənab prezident İlham Əliyev də bir lider olaraq, istər Avropada, istərsə də dünyada etibarlı tərəfdaş, etibarlı lider kimi qəbul edilir və ona görə də Avropa Birliyi kimi çox mötəbər dövlətlərarası qurum Azərbaycanla bu cür əməkdaşlıqda çox ciddi şəkildə maraqlıdır. Yəni, Avropaya vercəyəimiz divident bəlli, Avropadan alacağımız nə olacaq? Əlbəttə ki, bunun maliyyə gəliri öz yerində, ikinci bir tərəfdən də Azərbaycan Avropada sözünü daha uca səslə demək üçün əlavə imkanlar qazanmış olacaq. Yəni, bəzən insanlar deyir ki, qazdır da satırıq Avropaya və pul qazanırıq. Bu, bu qədər də bəsit bir məsələ deyil. Bu həm də çox böyük bir siyasi əhəmiyyəti olan bir məsələdir. Yəni, Avropa Azərbaycan qazından da asılılığa əgər qol qoyursa, bu o deməkdir ki, Azərbaycanın müəyyən çağırışları istəkləri qarşılanmalı olacaq. Avropa Birliyi Azərbaycanla bu məsələdə də yumşaq desək, hesablaşmalı olacaq. Bu isə Azərbaycana hava, su kimi lazımdır. Bax, Cənab Prezidentin strateji uzaqgörənliyi də məhz burada özünü göstərir. Azərbaycan Avropaya qaz satmaqla, ən ümdə problemlərinin Avropa Birliyi ölkələrinin birləşdiyi təşkilatda ən yüksək səviyyədə dilə gətirmək və həll etmək üçün yeni bir imakn qazanmış olur", deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

# Tural Abbaslı niyə ağ eləyir?

*Yaxud, mövqeyi bəlli olmayan "ağ partiyaçının" uğursuz vəzifəpərəstlik manipulyasiyası*

***Müxalifət cameəsində pis-yaxşı fəaliyyət göstərən bir sıra şəxslər var ki, onların mövqelərinin nədən ibarət olması da kimsəyə sirr deyil. Yəni radikalın radikal müxaliətçi, konstruktivin isə konstruktiv müxlaifətçi kimi tanınmaları həmin şəxslərin necə deyərlər, hansı "məzhəbə" qulluq etmələrini də açıqaydın sərgiləməkdədir. Lakin elələri də var ki, onların qulluq etdikləri "məzhəb" ümumiyyətlə məlum deyil. Məsələn, götürək "Ağ Partiya" adlı siyasi təşkilat yaradıb, özünü həmin təşkilata sədr seçən Tural Abbaslını. Həmin T.Abbaslını ki, anasının hesabına bir neçə il Müsavatda vaxtını "öldürüb", sonra da həmin partiyanın üzünə və rəhbərliyinə ağ oldu. Nədi-nədi, bir neçə il müsavatçı gənclərə sədrlik etdi və birdən ağlına gəldi ki, bəs niyə də o partiyanın başqanı olmasın?***



### "Ağ Partiya" adlı təşkilatın ağappaq sədri...

Görünür, şou-biznesin ulduz xəstəliyi artıq siyasi müxalifətin çevrəsinə də əməlli-başlı sirayət edib və nəticədə T.Abbaslı da bu xəstəliyə mübtəla olub. Olub ki, Müsavatın qurultayında başqanlıq namizədliyini irəli sürməklə partiyanın ali kreslosuna sahib çıxmaq istədi. Amma...

Amma nə hərbi xidmət keçmiş, nə ali məktəb bitirmiş bir şəxsin bu qədər iddia ortaya qoyması ona baha başa oyurdu. Etiraf edək ki, Müsavatın başqanlığına namizədliklərini irəli sürmüş o zamankı şəxslərı bir çoxunun yanında cılız, heç bir siyasi uğuru olmayan kimi görünən T.Abbaslının başqan olmayacağı bəri başdan görünməkdəydi. Ancaq o nədənsə mübtəla olduğu ulduz xəstəliyinə güvənərək, başqanlıq ambisiyalarından əl çəkməməklə yanaşı, üstəlik ona siyasət yolunda az-çox dərs keçənlərin üzlərinə belə ağ oldu..! Nəticədə istefa verərək, ağolmalarının təsirindən özünə "Ağ Partiya" adlı təşkilat da yaratdı və oldu bu təşkilatın ağappaq sədri...

### Əvvəlcə hərbi xidmətə get, ali savad əldə et, sonra...

Artıq bir neçə ildir ki, özünü müxalfətin "aparıcı partiyasının sədri" kimi təqdim edən, daha dəqiq desək, buna cəhd göstərən T.Abbaslının ambisiyaları hələ də bitib-tükənmək bilmir. Uşaqlığının keçdiyi partiyanın və partiya rəhbərliyinin üzünə durub oranı tərk edən, buna görə hakimiyyətdən pay alacağını düşünən T.Abbaslı əslində bu gedişində də ciddi şəkildə yanıldı və məğlub oldu. Hakimiyyət kimsəyə vəzifəni pay vermir, vəzifəni əməli fəaliyyətlə, doğruluq və dürüstlüklə, əqidə və sədaqətliklə əldə etmək lazımdır. Habelə, bütün bu üstün faktorları əldə etmək üçün T.Abbaslının məhz YAP-dan öyrənəcəyi çox şeyləri var. Kimsəyə lazım olmayan iddialarını, lüzumsuz və ucuz düşüncələrini bir kənara qoyub özünü sındırmağı, ulduz və vəzifə xəstəliyindən əl çəkməyi bacararsa, onda reallıqları açıq gözlə görməyə müvəffəq olar. Sadəcə...

Sadəcə, bayaq da qeyd etdiyimiz kimi, Vətəninin müdafiəsi üçün hərbi xidmətə yollanmayan, ali təhsili olmayan birinin bu qədər vəzifə hərisliyinə düçarlığı həqiqətən də anlaşılmazdır. Hətta o qədər anlaşılmazdır ki, özü qalsın bir yana, hətta hakimiyyətdəki siyasi yetkin şəxslərə belə dil uzadıb, "mən də varam" prinsipi ilə ortada atılıb-düşməsi növbəti sualları yaradır.

### Amma bacararsanmı..? Çətin..!

Misal üçün sual oluna bilər ki, sən hələ "Ağ Partiya"na doğru-dürüst sahib ola bilmirsənsə, ətrafındakı beş-on nəfərə sözünü çatdırmaq imkanından yararlanmağı bacarmırsansa, hansı vəzifə xülyalarına can atırsan ki..? Bu gün hakim partiya olaraq YAP-ın sıralarında bu ölkənin müstəqilliyi, təhlükəsizliyi, qorunub-saxlanılması, müdafiəsi, inkişafı və tərəqqisi üçün ömürlərini qoyanlar var ki, hətta onlar belə, gördükləri böyük işlərin qarşılığında nə vəzifə, nə də yüksək postlara iddia edirlər. O zaman sənə nə gəlib ay Tural? Gecələr yatanda belə, "vəzifə-vəzifə" sayıqlamalarınla yaxın ətrafının başını-gözünü ağrıtmaqla məşğulsan. Adama deyərlər ki, sən hələ get düz-əməlli hərbi xidmətini keç, normal ali təhsilini qazan, həyatın neçə bucaqdan ibarət olduğunu öyrən (!) və sonra hakimiyyətin yüksək eşalonlarında canla-başla xidmət edən şəxsiyyətlərin fəaliyyətlərini araşdır. Yoxsa nə var ki, ana qayğısı altında dırnaqarası siyasətçi statusunu qazanmağa, nə var ki, "ana uşağı" olaraq utopik xəyallara dalıb vəzifə hərisliyi ilə alışıb-yanmağa, yaxud paxıllıq çəkməyə!

Yaxşısı budur, insanların üzlərinə ağ olub "Ağ Partiya" adı altında ağetmə manipulyasiyaları etməkdənsə, müstəqil Azərbaycanın müasir tarixini öyrən və bacarsan imtahan ver. Bəlkə bundan sonra siyasi həyatının illər boyu ilk kiçik addımlarını atmağı bacararsan. Amma bacararsanmı..? Çətin..!

***Rövşən RƏSULOV***

# 1 kodu üzrə icazələrin verilməsinə görə məhdudiyyət yoxdur



Azərbaycanın bir sıra şəhər və rayonlarında tətbiq edilən sərtləşdirilmiş xüsusi karantin rejimində evdən çıxma icazəsi olan şəxslər istisna olmaqla, digər şəxslərin yaşayış yerini və ya olduğu yeri tərk etmələri icazə əsasında həyata keçirilir. SİA-nın xəbərinə görə, icazələr təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar, ərzaq və digər gündəlik tələbat mallarının, dərman vasitələrinin alınması, dövlət xidmətlərinin, bank, poçt və fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar verilir.

Belə ki, 1 rəqəmi - təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə rayon və şəhər daxilində 2 (iki) saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir).

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən bildirilib ki, gün ərzində 1 indeks üzrə alınan icazələrin sayına görə məhdudiyyət nəzərdə tutulmayıb. Qeyd olunub ki, 1 rəqəmindən icazələrin sayına təxirəsalınmaz tibbi zərurətlə əlaqədar olduğu üçün məhdudiyyət tətbiq edilməyib.

"Çünki vətəndaşın gün ərzində qrafik üzrə bir neçə dəfə müalicə alması mümkündür", - deyə məlumatda bildirilib. 2 rəqəmi vasitəsilə icazə isə ərzaq və digər gündəlik tələbat mallarının, dərman vasitələrinin alınması, dövlət xidmətlərinin, bank, poçt və fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə 2 (iki) saat müddətinə gündə 1 dəfə verilir, dövlət xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk edən şəxslər üçün geri qayıtma müddəti müvafiq dövlət qurumu tərəfindən verilən arayışla müəyyən edilir). Yaxın qohumun dəfnində iştirak üçün vətəndaşlar Daxili İşlər Nazirliyinin 102 qaynar xətti ilə əlaqə saxlamalıdırlar.

Bundan başqa, Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 20-də keçirilən brifinqində gün ərzində SMS icazə sistemi vasitəsilə 1 kodundan istifadə edən şəxsin 2 kodundan da istifadə edə bilməsinin mümkün olduğunu vurğulayıb. Dövlət Agentliyinin sədri bununla yanaşı, vətəndaşları sui-istifadə hallarına yol verməməyə, yalnız zəruri hallarda və təyinatı üzrə SMS icazə sistemindən istifadə etməyə çağırıb. Sui-istifadə hallarına yol verilməsinin isə karantin rejiminin pozulması kimi qiymətləndiriləcəyi və bununla bağlı qanunvericiliyin tələbinə uyğun tədbirlər görüləcəyi bildirilib. Bundan əlavə, koronavirus testinin cavabı pozitiv çıxdığı üçün evdə müalicəyə cəlb olunan və özünütəcrid rejimində olan şəxslərin SMS icazə sistemindən istifadəsi mümkün olmayacaq. Həmin şəxslərin siyahısı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən Dövlət Agentliyinə təqdim edilib.

# "Ermənilər silahsız azərbaycanlıları təqib edərək vəhşicəsinə qətlə yetiriribler"



"Bu günlərdə Azərbaycan şairi Mir Mövsün Nəvvabın "1905-1906-cı illərdə erməni müsəlman davası" əsərini oxudum. Kitabda 1903-1904-cü illərdə Şuşada və Qarabağın başqa bölgələrində ermənilərin Azərbaycanlılara qarşı törətdikləri amansız qəddarlıq və cinayət əməlləri haqqında ayrı-ayrı epizodlarda geniş məlumat verilir. Hələ o dövrlərdə ermənilər bu bölgədə yaşayan azərbaycanlılara qarşı kütləvi qətllər törətmiş, bu haisələrdə erməni kilsəsi aktiv rol oynamışdır". BunuSİA-ya millət vəkili Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, həmin dövrdə də çarın əmri ilə azərbaycanlılara silah gəzdirmək qadağan olunmuşdu: "Bundan məharətlə istifadə edən ermənilər silahsız azərbaycanlıları təqib edərək vəhçicəsinə qətlə yetirirdilər. Onlar bunu o zamanlar dünyanın bir çox yerlərində yaratdıqları qımdatxanalar (erməni quldur dəstələrini birləşdirən mərkəzlər) vasitəsilə həyata keçirirdilər. Bu quruma erməni ziyalıları, gənclər, sənətkar və cəmiyyətin digər nümayəndələri cəlb edilirdi. Bu qurumun əsas vəzifəsi azərbaycanlılara qarşı təbliğatda, təxribatda, sui-qəsddə, eləcə də, silahlı toqquşmalarda istifadə etmək üçün lazımi hərbu sursatın təmin olunması, çar məmur və zabitlərinin rüşvətlə ələ keçirilməsi məqsədilə varlı erməni təbəqələrindən pul toplanılması idi.

Hər zaman olduğu kimi o dövrdə də ermən millətçilərinin Azərbaycanlılara qarşı həyata keçirdiyi qətllərə xeyr-dua verən, xalqımıza qarşı törətdikləri qanlı cinayətlərin, qırğınların əsas təşkilatçısı yerlərdə fəaliyyət göstərən kilsələr və kilsə xadimləri olmuşlar. Kilsənin toxunulmaz Tanrı məbədi olduğu nəzərə alınaraq keşişlər həmin dövrdə onu xaqlımız qarşı erməni quldur dəstələrini silahlandıran hərbi sursat cəbhəxanasına çevirmişdilər. İnsanlığı mənəvi paklığa çağırmalı olan, onları günah əməllərdən, ədavətdən, zülmdən çəkindirmək missiyası daşıyan, insanlığı ədalətə, xeyirxahlığa, haqq yoluna dəvət etməli olan kilsə öz mahiyyətindən uzaqlaşaraq erməni quldur dəstələrinin silahlandırılaraq azərbaycanlıları qətl etməyə təşviq edirdi.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri iğtişaş və qırğınlarda kilsənin fəaliyyətini öyrənmiş rus diplomatı, general Mayevski öz qeydlərində yazırdı: "Erməni din xadimləri haqqında bir neçə söz demək istəyirəm. Onların dini fəaliyyəti olduqca cüzidir. Erməni din xadimlərinin fəaliyyəti "Allah kəlamını" çatdırmaqdan yox, müsəlmanlarala xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir". Vaxtilə Eçmiədzinə səfər etdikdən və onun fəaliyyəti ilə yaxından tanış olduqdan sonra fransız alimi Baron de-Bay belə yazmışdı: "Bu kisı bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdir... Mənim bütün minnətdarlıqlarıma baxmayaraq, mən səmimi olmalıyam. Bu monastr məndə dini mərkəzdən çox siyasi mərkəz təəssüratı yaratdı". Erməni kilsələrinin belə qeyri-insani fəaliyyətini işıqlandıran ayrı-ayrı mənbələrdən bir çox nümunələr gətirmək olar. Müasir dövrdə də istər xaricdə, istərsə də daxildə olan erməni mafiyasının ən qüdrətli dayaqlarından biri, terror və təbliğat şəbəkələrinin təşkilatçısı, onu maddi cəhətdən təmin edən kilsə olmuşdur. Bu gün də kilsə bu missiyanı "uğurla" davam etdirir. itabda müəllif konkret epizodlarla ermənilərin Dağlıq Qarabağda azərbaycanlılara törətdikləri qətllərdən geniş bəhs edir. Həmin hadisələri təhlil edərkən ermənilərin azərbaycanlılara qarşı kin və küdurətinin, düşmənçiliyinin tarix boyu davam etdiyinə bir daha əmin olursan. Sözügedən əsər istər Dağlıq Qarabağda, istərsə də digər bölgələrdə ermənilərin həyata keçirdikləri qətllərin səbəblərinin, onun tarixi köklərinin və erməniləri dəstəkləyən qüvvə və tərəflərin öyrənilməsində və xarici qüvvələrin bu bölgədə apardıqları siyasətin mahiyyətinin öyrənilməsi baxımından xüsusi önəm daşıyır".

***Ceyhun Rasimoğlu***

# 23 İyun ölkəmizdə dövlət qulluqçularının peşə bayramıdır




***İyunun 23-ü ölkəmizdə dövlət qulluqçularının peşə bayramıdır. Bu bayram Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli "Dövlət Qulluqçularının Peşə Bayramı Gününün təsis edilməsi haqqında" Sərəncamı ilə təsis edilmişdir. Xatırladaq ki, bu bayram ilk dəfə BMT Baş Assambleyasının 20 dekabr 2002-ci il tarixli qətnaməsinə əsasən, 2003-cü ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü kimi qeyd edilmişdir.***

Həmin qətnamədə BMT-nin üzvü olan dövlətlərə tövsiyə olunmuşdur ki, dövlət qulluğunun dövlətlərin inkişafında əhəmiyyətini daha yaxşı işıqlandırmaq və təbliğ etmək məqsədilə xüsusi gün təsis etsinlər. Dövlət qulluqçusunun dövlətin, cəmiyyətin və hər bir vətəndaşın həyatında önəmini, demokratik, hüquqi və dünyəvi dövlətin qurulması prosesində dövlət qulluğunun rolunu və BMT Baş Assambleyası tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü elan edildiyini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin günü "Dövlət Qulluqçularının Peşə Bayramı Günü" kimi təsis etmişdir. Respublikamızda çalışan çoxsaylı dövlət qulluqçuları öz bayramlarını 2006-cı ildən etibarən təntənəli şəkildə qeyd edirlər.

Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuşdur. Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi prosesinə başlanılmış, dövlət qulluğu sahəsində daha geniş islahatlar həyata keçirilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ulu Öndərin təşəbbüsü və müəllifliyi ilə hazırlanan ilk milli Konstitusiya müasir dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin yaradılmasının hüquqi bazası rolunu oynamışdır. Dövlət idarəetməsində köklü islahatların aparılması mühüm əhəmiyyət kəsb etdiyi üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" Fərman imzalanmışdır. Komissiya dövlət quruculuğunun inkişaf etdirilməsi, dövlət idarəetmə, o cümlədən dövlət qulluğu sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi, habelə yeni normativ hüquqi aktların işlənib hazırlanması sahəsində mühüm işlər görmüşdür. 2000-ci ildə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanunun qəbul edilməsi ilə dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyuldu. "Dövlət qulluğu" və "dövlət qulluqçusu" anlayışları da məhz bu qanunla gündəmə daxil oldu.

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlət qulluğu sahəsinin inkişafına xüsusi diqqət yetirilir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmin yaradılmasına diqqət artırılmışdır. Dövlət qulluğu sahəsindəki islahatları sürətləndirmək, dövlət qulluğunu daha yaxşı təşkil etmək məqsədilə Prezident İlham Əliyevin fərmanı ilə 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradıldı. Komissiyanın əsas fəaliyyət istiqaməti Azərbaycan Respublikasının Konstitusiyasının 55-ci maddəsinə müvafiq olaraq vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnun həyata keçirilməsi üçün dövlət qulluğuna qəbulun bərabərlik, şəffaflıq və müsabiqə əsasında keçirilməsi ilə bağlıdır.

Ölkəmizdə dövlət qulluqçularının peşəkarlığını artırmaq məsələləri daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dövlət qulluqçularının hazırlanmasında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçularının peşə səviyyəsinin yüksəldilməsində, dövlət qulluğunun nəzəri və praktiki məsələlərinin öyrənilib müvafiq təkliflər verilməsində rolu böyükdür. Azərbaycanda dövlət qulluqçularının sayı ildən-ilə daha da artır ki, bu da yeni idarəetmə strukturlarının yaradılması və bəzi qurumların yenidən təşkil olunması ilə bağlıdır. Dövlət başçısının Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019?2025-ci illər üçün Strategiya" təsdiq edilmişdir. Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunun formalaşdırılmasada dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır. Ölkədə bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini daha da artırır. Dövlət qulluğu mühüm əhəmiyyət daşıyan sahə, çətin və məsuliyyətli, eyni zamanda, şərəfli bir peşədir. İnsanlar öz gündəlik həyatlarında rastlaşdıqları problemlərin həllində dövlət qulluqçularına böyük ümid bəsləyirlər. Dövlət qulluqçusu da, öz növbəsində, ona bəslənən ümidləri doğrultmalıdır.

***Zümrüd BAYRAMOVA***

# "Suya qənaətlə bağlı təcili işlər görülməlidir"

"Dünyada istehlak olunan şirin suyun 70%-ə qədərinin kənd təsərrüfatı sektoru tərəfindən istifadə olunur. Alimlərin hesablamalarına görə, 2050-ci ilə qədər artan dünya əhalisinin ərzaq tələbələrinin qarşılamaq üçün əlavə olaraq 19% suyun istifadəsinə zərurət yaranacaq". Bu fikirləri SİA-ya millət vəkili Müşfiq Cəfərov deyib.

Deputatın sözlərinə görə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 15 aprel 2020 tarixli Sərəncamı ilə ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə xüsusi komissiya yaradılıb. Bu komissiyanın yaradılması bir daha onu göstərir ki, sudan qənaətlə istifadənin zəruriliyi, kənd təsərrüfatı əkinlərində suvarmada itkilərin minimuma endirilməsi və təsərrüfatlar arasında ədalətli bölüşdürülmə məsələləri ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

"Bu səbəbdən kənd təsərrüfatında məhsuldarlığın artırılması ilə bərabər sudan istifadədə qənaətin çoxaldılması istiqamətində təcili işlər görülməlidir. Bu işlərin görülməsi üçün müxtəlif qənaətcil irriqasiya texnologiyalarının tətbiqinə, müxtəlif aqroiqlim və torpaq-bitki münasibətlərində torpaqda gedən proseslərə (buxarlanma, rütubət saxlama və s.) nəzarət etmək üçün sistemlərin qurulmasına ehtiyac vardır. Yeni texnologiyanın tətbiqi şirin suların monitorinq işinin təşkilinə və idarə olunmasına xidmət edəcək. Onu da qeyd edim ki, bu texnologiya bir çox inkişaf etmiş və inkişafda olan ölkələrdə qurraşdırılıb, o cümlədən qonşu Gürcüstanda bir neçə ildir ki şirin sulara bu texnologiya vasitəsilə dövlət nəzarəti həyata keçirilir və ona uyğun şəkildə suya qənaət edilərək əkin işləri aparılır. Bu səbəbdən aqrar sektorda qənaətcil suvarma texnologiyalarının tətbiqi üçün dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsinə və ölkə ərazisində geniş şəkildə tətbiqinə ehtiyac vardır", - deyə, deputat qeyd edib.

# "İmtahanların avqust ayının sonuna qədər uzanacağı gözlənilir"



"İnsanların sağlamlığı hər şeydən önəmlidir. Amma düşünürəm ki, qaydalara əməl edilməklə imtahanların təşkili mümkündür". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov pandemik vəziyyətin təhsil sektoruna neqativ təsirlərindən danışarkən deyib. O bildirib ki, 2020-ci il abituriyentlər üçün olduqca uğursuz il oldu, mart ayının 3-dən orta məktəblərdə dərslər dayandı, ardınca onların qəbul və buraxılış imtahanlarında nəticə əldə etməsinə birbaşa təsir edən hazırlıq kursları və repititorların fəaliyyətinə də məhdudiyyət tətbiq edildi və nəticədə şagirdlər normal dərsdən geri qaldılar: "Bu həftə növbəti dəfə karantin səbəbi ilə imtahanlar təxirə salındı. Bəli, insanların sağlamlığı hər şeydən önəmlidir. Amma düşünürəm ki, qaydalara əməl edilməklə imtahanların təşkili mümkündür. Son qərar şagirdlərə olduqca böyük psixoloji sarsıntı yaratdı. Artıq onların özlərinə olan inamı aşağı düşdü. Məhz bu amil onların qəbul imtahanlarındakı nəticələrinə ciddi şəkildə təsir edəcəkdir. Mövcud vəziyyətdə imtahanların avqust ayının sonuna qədər uzanacağını gözləmək olar. Bu da şagirdlərin həm psxioloji, həmdə zehni yorulmasına gətirib çıxaracaq."

# DYP: SMS icazə ilə rayonlara getmək istəyənlər postlardan buraxılmayacaqlar



Yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün 2020-ci il 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazilərində tətbiq edilmiş məhdudiyyətlərlə əlaqədar fəaliyyətinə icazə verilmiş qurum və təşkilatlarda işləyən bəzi şəxslərin xidməti vəsiqə, bəzilərinin "icaze.e-gov.az" portalına daxil edilmiş məlumatları, digər şəxslərin isə SMS məlumat əsasında ərzaq və digər gündəlik tələbat mallarının, dərman vasitələrinin alınması, dövlət xidmətlərinin, bank və ya poçt xidmətlərindən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün gündə 1 dəfə olmaqla 2 saat müddətinə icazə verilmişdir. Bunu Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev bildirib.

K.Əliyevin sözlərinə görə, lakin ötən gün ərzində aparılan müşahidələr göstərir ki, SMS məlumat vasitəsi ilə yaşayış yerini və olduğu yeri tərk etmək üçün 2 saat müddətinə icazə almış bəzi rayon qeydiyyatlı şəxslər icazəni təyinatı üzrə deyil, sərtləşdirilmiş karantin rejimi tətbiq edilməyən ərazilərə getmək üçün alırlar:

"Göstərilənləri nəzərə alaraq, DİN Baş DYP İdarəsi Bakı, Sumqayıt şəhərləri və Abşeran rayonunda yaşayan, lakin respublikanın ayrı-ayrı rayon və şəhərlərində daimi qeydiyyatda olan hərəkət iştirakçılarının diqqətinə çatdırır ki, infeksiyaya yoluxmanın yayılma sürətini nəzərə alaraq, SMS vasitəsi ilə icazə alıb daimi qeydiyyatda olduğu rayonlara getmək istəyən şəxslər həmin inzibati ərazilərin sərhədlərindəki avtomobil yollarında yerləşən karantin postlarından buraxılmayacaqlar. Xahiş olunur ki, həmin şəxslər karantin postlarının paytaxtdan 50-60 kilometrlik məsafədə yerləşməsini nəzərə alaraq, qeyd olunan istiqamətlərə getməklə əlavə əziyyət çəkməsinlər, eləcə də ölkədə tətbiq edilmiş epidemiya əleyhinə və karantin rejimlərinin pozulmasına görə inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməmək üçün digər yollardan istifadə etməklə karantin ərazilərini keçməyə cəhd göstərməsinlər".

# Taksi fəaliyyətinə görə ödənilən dövlət rüsumunda artım olubmu?

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli müvafiq Qanunu ilə Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, "Fərqlənmə nişanı" almaq üçün vergi ödəyicisinin ərizəsinə həm də məcburi dövlət sosial sığorta haqqının ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. SİA-nın xəbər verir ki, bu barədə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova məlumat verib.

Onun sözlərinə görə, sözügedən Qanunun 2.4-cü maddəsində məcburi dövlət sosial sığorta haqqının ödənilməsi ilə bağlı dəyişikliklərin "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunuda "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" və "Fərqlənmə nişanı" ilə bağlı ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minəcəyi qeyd olunurdu: "Bildirirk ki, 2020-ci il 8 may tarixli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanunlar qəbul edilib. Sözügedən qanunlarda "Fərqlənmə nişanı"nın alınması üçün vergi ödəyicisinin ərizəsinə eyni zamanda məcburi dövlət sosial sığorta haqqının ödənilməsini təsdiq edən bank ödəniş sənədinin əlavə edilməsi bir daha təsbit olunub. Yuxarıda qeyd olunanlardan irəli gələrək qeyd edim ki, əvvəlki qanunvericiliyə uyğun olaraq "Fərqlənmə nişanı"nın alınması üçün sadələşdirilmiş vergi və reysqabağı texniki və tibbi müayinə üçün ödəniş edilirdi. Lakin mövcud qanunvericiliyə əsasən isə "Fərqlənmə nişanı"nın alınması üçün əlavə olaraq məcburi dövlət sosial sığorta haqqı da ödənilməlidir. Odur ki, sadələşdirilmiş verginin məbləğində hər hansı dəyişiklik edilməyib".

# “Sammit Paşinyanın sərsəm iddialarının əsassız olduğunun nümayişi oldu”



***“Azərbaycan işğalçı Ermənistana diplomatiya müstəvisində böyük zərbələr vurmaqda, bu ölkənin siyasi iflasını uğurla həyata keçirməkdədir. Prezident İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubu kimi motəbər bir forumun tribunasından “Qarabağ Azərbaycandır və nida işarəsi!” bəyanatı, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında tutarlı faktlara əsaslanan nitqi, Münxen debatı zamanı səsləndirdiyi tutarlı cavabları hər bir Azərbaycan vətəndaşını qürurlandırır.***

Eyni zamanda, dövlət başçımızın əzəli torpağımız Dağlıq Qarabağla bağlı Ermənistan hakimiyyəti tərəfindən səsləndirilən sərsəm iddialara sərt və tutarlı cavabları dünya ictimaiyyətində Ermənistanın işğalçı siyasəti haqqında aydın fikir yaradıb”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib.

P.Kərimzadə bildirib ki, Ermənistan növbəti belə diplomatik zərbəni iyunun 18-də Avropa İttifaqına üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının videokonfrans formatında keçirilən sammitində aldı. Videokonfransda Ermənistanın işğalçılıq siyasəti növbəti dəfə ifşa edildi.

Millət vəkilinin sözlərinə görə, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin sədrliyi, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borellin iştirakı ilə videokonfrans formatında keçirilən Sammitdə Prezident İlham Əliyev tərəfindən Dağlıq Qarabağla bağlı tarixi həqiqətləri tədbir iştirakçılarının diqqətinə çatdırıldı: “Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır”. Azərbaycan Prezidentinin Qarabağla bağlı qətiyyətli mövqeyi Nikol Paşinyana, bütünlükdə erməni ictimaiyyətinə, həmçinin bu işğalçıların havadarlarına olduqca layiqli bir cavab oldu.

“Videokonfransda terrora dövlət səviyyəsində dəstək verən Paşinyan yenə də sərsəm ritorikaları və diplomatiya tarixinə ləkə gətirən qeyri-ciddi çıxışı ilə diqqəti cəlb etdi. Erməni terroru ilə bağlı daha bir ifşaedici faktın Prezidentimiz İlham Əliyev tərəfindən yenidən diqqət mərkəzinə gətirilməsi Paşinyanın yalan üzərində qurulmuş çıxışını dəqiq faktlara və arqumentə əsaslanan məntiqli fikirləri ilə alt-üst etdi. Əvvəlku beynəlxalq toplantılarda olduğu kimi, növbəti dəfə də Azərbaycan Prezidenti işğalçı rejimin rəhbərinin yalanı ifşa etdi. Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammiti diplomatiya müstəvisində Ermənistanın baş nazirinin sərsəm iddialarının əsassız olduğunun daha bir nümayişi oldu”-deyə, P.Kərimzadə vurğulayıb.

# “Paşinyanın siması Ermənistanın siması oldu”

***“İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib. Bu Sammitdə cənab İlham Əliyev Azərbaycan-Avropa İttifaqı münasibətlərin inkişafına, qlobal pandemiya ilə mübarizədə beynəlxalq səviyyədə Azərbaycanın verdiyi töhfələrə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, ölkəmizin əldə etdiyi iqtisadi uğurlarla və digər məsələlərlə bağlı əsil dövlət liderinə xas ətraflı çıxış etdi. Sammitdə söz alan Ermənistanın Baş naziri Paşinyan isə savadsız, məntiqsiz, heç bir tarixi faktına əsaslanmayan və işlətdiyi ifadələri ilə özünü heç də küçə adamından fərləndirməyən dövlət rəhbərinə yaraşmayan tərzdə danışdı”. Bunu SİA-ya millət vəkili Azər Badamov deyib.***



Deputatın sözlərinə görə, Paşinyanın danışığı erməni siyasətinin kökündə terrorçuluğun birinci yerdə durduğunu, erməni hakimiyyəti hər zaman terrorçulara dəstək dayandığını bir daha videokonfrans iştirakçılarına sübut etdi: “Online keçirilən videokonfransda Paşinyan tibbi maska taxmaqla və fikirlərini ifadə edə bilməməsi ilə özünü gülünc vəziyyətinə salmış oldu. Yəqin ki, Paşinyan videokonfrans iştirakçılardan internetdən virusa yoluxmasından özünü qoruyurdu. Cənab Prezident sonda yenidən söz alaraq ermənilərin terrorçu mahiyyətini Parisin Orli limanında erməni terroristin törətdiyi partlayışı və 1983-cü ildə ömürlük həbs olunmuş Karapetyanı Ermənistana ekstradisiya olunaraq Ermənistan prezidenti tərəfindən əfv olunmasını auditoriyanın diqqətinə çatdırdı. Prezident İlham Əliyev çıxışında həmişə olduğu kimi özünü geniş intellekt və böyük iradə sahibi olduğunu bir daha göstərdi. Paşinyan isə dövlət rəhbərləri təmsil olunan bu videkonfransda özünü cılız, savadsız, harda özünün olduğundan xəbərsiz və liderlik xüsusiyyətlərinə malik olmayan bir erməni olduğunu bir daha təqdim etdi. Paşinyanın siması Ermənistanın siması oldu. Sonda Paşinyana İlham Əliyevin “məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim” deməklə susdurması Prezidentimizin ermənilərə verdiyi növbəti tarixi dərsi oldu”.

## Erməni vəkil: Ermənistanda konstitusiya quruluşunu devirməyə hazırlaşırlar

Ermənistanda konstitusiya quruluşunu devirməyə hazırlaşırlar. SİA xəbər verir ki, bu barədə Facebook-da ölkənin tanınmış vəkili Amram Makinyan yazıb. “Bütün hüquq müdafiəçilərini diqqət yetirməyə çağırıram”, qeyd edən erməni vəkil hesab edir ki, burada əsas məqsədlərdən biri də məhkəmə hakimlərinin səlahiyyətlərinə qanunsuz xitam verilməsidir. “Baş verən prosesləri susqun şəkildə müşahidə etmək isə ayrıca cinayət məsuliyyəti daşıyır”, Makinyan yazıb. Aysor.am isə 168 jam-a istinad edərək xatırladır ki, hakim “Mənim addımım” blokunun 88 deputatı konstitusion çevriliş edəcək və bununla da cinayətə yol açacaq. “Parlamentin deputatları ciddi qanun pozuntuları ilə və konstitusiya məhkəməsinin razılığı olmadan Ermənistanın ana yasasında dəyişikliklər edərək hakimlərin fəaliyyətlərinə xitam verəcəklər”, deyə erməni nəşri xatırladıb.



Təhmasib Novruzov

# Prezident növbəti dəfə sübut etdi ki...

***Ötən həftənin ən yaddaqalan hadisəsi dünyanın nüfuzlu beynəlxalq qurumlarından olan Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı üzrə video-konfransının keçirilməsi oldu. Hər şeydən əvvəl həmin video-konfransda Avropanın siyasi liderlərinin Azərbaycana xüsusi hörmətlə yanaşmasının, Azərbaycanın əzəli və əbədi düşməni olan Ermənistanın isə istehza ilə qarşılanması içimizdə gerçək bir qürur hissinin yaşanmasına səbəb oldu.***

Təbii ki, yaxın keçmişə qədər öz maraqları və erməni hiyləgərliyi, xüsusən, XIX əsrin sonlarından dünya güclərinin dəstəyi ilə yaranıb formalaşan erməni lobbisinin yardımı hesabına Ermənistana açıq-aşkar dəstək verən bir mötəbər beynəlxalq birliyin siyasi dönüş nümayiş etdirməsi Azərbaycanın sürətli inkişafı və bu inkişafla yanaşı diplomatiya sahəsində əldə etdiyi uğurlu nəticədir və bundan qürur keçirməmək mümkün deyil. Video-konfransda Azərbaycan Prezidentinin əsl diplomatik məharətlə Ermənistanı, o cümlədən işğalçı ölkənin indiki səviyyəsiz rəhbərini ifşa etməsi isə xüsusilə qeyd edilməlidir. Bu gün təkcə Azərbaycan cəmiyyətində deyil, həm də Ermənistan və dünya mətbuatında geniş müzakirə olunan bu fakt haqqında ətraflı danışıb vaxt aparmağa lüzum görmürəm.

Sadəcə Azərbaycan liderinin, Ermənistana və dünyaya Dağlıq Qaranbağla bağlı ölkəmizin haqlı mövqeyini göstərməklə, diplomatik ustalıqla xalqımızın bu torpaqların işğalı ilə barışmayacağını birmənalı şəkildə ortaya qoyması ölkəmizin növbəti diplomatik qələbəsidir ki, indiki ikili standartlarla yaşayan dünyada bu faktın bizim üçün nə qədər əhəmiyyətli olduğundan danışmağa ehtiyac yoxdur.

Azərbaycan Prezidentinin artıq ənənəyə çevrilmiş bu diplomatik uğurlar seriyasının davamı olan növbəti siyasi qələbə, qarşılıqlı olaraq onsuz da küncə qısnanmış Ermənistanın dalandakı durumunu daha da pisləşdirdi. Bu növbəti uğura qiymət verərkən onun ikinci məqamına da diqqət yetirməyə ehtiyac var. Bu da ibarətdi ondan ki, indiki dünyada dövlətçilik təcrübəsini, siyasi müdrikliyin və diplomatik məharətin nə qədər önəmli olduğunu anlamayanlara, bu qələbə əsl siyasi dərsdir. Məhz İlham Əliyev növbəti dəfə onu da sübut etdi ki, güclü, siyasi baxımdan yetkin, xalqın gerçək dəstəyinə malik lider diplomatik uğurları ilə bəzən bütöv bir ordunun görə bilmədiyini reallaşdıra bilir. Hesab edirəm ki, cəmiyyət olaraq növbəti diplomatik qələbənin məhz bu nöqteyi-nəzərdən də təhlilinə ehtiyac var.

Bu gün Azərbaycanda cəmiyyəti meydanlara çağıran, özünü siyasi müxalifət adlandıran bəzi qüvvələrə də ciddi dərs olan bu uğurun əsas səbəbini anlatmaq, düşünürəm ki, məqamı çatan məsələlərdəndir. Paşinyan hakimiyyətə məhz meydandan gəldi. Təbii ki, xaricdən verilən dəstəyin hesabına! Həmin xarici dəstəkçilərin küyünə aldanan bizim bəzi müxaliflər hakimiyyətə meydandan gələnlərin rüsvayçı aqibətini görüb nəticə çıxarmalıdırlar. Heç bir siyasi, diplomatik və idarəetmə səriştəsi olmayan, pafoslu çıxış qəhrəmanları bunun fərqinə varmalı və xalqa yalan vədlər verib iqtidara gəlib, sonda necə rüsvayçı duruma düşdükərinin fərqinə varmalıdırlar.

Təbii ki, Azərbaycan xalqı artıq kifayət qədər yetkinləşib, 90-cı illərin əvvəllərindən fərqli olaraq indi “çörəkçi”ni də tanıyır və “çörəyi kimə verməli” olduğunu da yaxşı bilir. Ən azı vaxtilə meydandan gələn, başında Əbülfəz Elçibəy kimi həqiqi vətən və millət sevgili bir şəxsiyyətin olmasına rəğmən ölkənin bütün sahələrdə necə ağır duruma düşdüyünü görən xalq bunu görüb və bilir. Ancaq, nədənsə bəzi siyasət dəllalları bunun fərqində olmaq istəmirlər ki, bu da cəmiyyətin əksər hissəsini narahat etməyə bilməz. Özlərini iqtidara müxalif kimi qələmə verib, əslində dövlətə və xalqa müxaliflik edən qüvvələr üçün də indiki iqtidar liderinin bu diplomatik uğuru ciddi dərs olmalıdır.Bir sözlə, ölkə başçısı növbəti dəfə təkcə ermənilər, onların liderləri üzərində diplomatik qələbəyə nail olmadı, həm də ölkəmizdəki bəzi siyasilərə də əməli-başlı dərs vermiş oldu. Qalır yaxşı şagird, yaxşı müdavim olub, bu dərsi yaxşı-yaxçı mənimsəmələri. Ağılları olsalar, mənimsəyəcəklər, olmasa, vay onların hallarına!

# Əxlaqsız cəbhə trolları

## *Yaxud "Milli Şura"-nın ləyaqətsiz ünsürləri*

***Sözümə başlamazdan əvvəl jurnalist Eynulla Fətullayevin özünü "ana müxalifət" adlandıranların quyruqbulayanlarının pandemiya rejiminə tabe olmayaraq polisin üzərinə zibil atmaları ilə bağlı dediyi fikirləri xatırlatmaq istərdim. "Ləyaqətsiz, insan libasını itirmiş şəxs və ya "Yasamal uşağı" sadə həqiqəti dərk etmək istəmir. Polisin üstünə zibil atmaq, aşağılamaq yolverilməzdir.***

Belə vətəndaşlara qarşı ən sərt cəza verilməlidir, ən sərt münasibət sərgilənməlidir. Bütün dünya pandemiya rejiminə tabe olur, amma dünyanın gözündə bizi rəzil duruma salan bəzi mədəniyyətsiz, ləyaqətsiz, insan libasını itirmiş şəxs və ya Yasamal uşağı sadə həqiqəti dərk etmək istəmir! Ölmək istəyirsən, öl! Cəhənnəmə öl! Amma mənim və yaxınlarımın həyatına təhlükə yaradırsan, ay zalım!!! Yoluxacaqsan və camaatı yoluxduracaqsan! Məncə, polis çox yumşaq davranıb! Belə şərəfsiz insanları döyə-döyə həbs etmək lazım idi. Kim sənə haqq verib ki, qanunun tələbini icra edən polisin üstünə zibil atasan???

### Bu məsələdə həddən ziyadə sərt və barışmaz olmaq lazımdır!"

Bəli, belə əxlaqsız və ləyaqətlərini itirmişlər ən ciddi cəzaya məhkumdurlar.

Və belə həssas günlərdə həkimlərlə yanaşı, Daxili İşlər Nazirliyi orqanları bütövlükdə koronovirus pandemiyası dövründə vətəndaşlarımızın təhlükəsizliyi və asayişin qorunması üçün şərəflə öz vəzifə borclarını yerinə yetirən polislərimizə qarşı qərəzli, əxlaqsız hərəkətlər etmək radikal müxalifətin Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli.... kimi əxlaqsız tryapkalar öz əsl simalarını nümayiş etdirməsidir. Bu fikir ictimaiyyət tərəfindən dəfələrlə vurğulanıb, bu aksiomadır - təfəkkürü şikəst olanlar, ancaq iyrənc və saxta əməllər sahibi olur. Və müşahidələr də göstərir ki, söyüş, təhqir, əxlaqsızlıqlarla dolu dırnaqarası siyasi mübarizə metodları radikal müxalifətin əsas fəaliyyət prinsipinə çevrilib. Bu istər seçki kampaniyaları dövründə, istər ölkəmizdə keçirilən yüksək tədbirlər ərəfəsi, istərsə də dünya dövlətlərinin "soyuq müharibə" ilə - koronavirusla mübarizə apardığı zaman sivil mübarizə bacarıqsızlığı, siyasi naqislik və zəiflik bu düşərgə mənsublarının əsl mahiyyətini açıb ortaya qoyur. Hakimiyyətə, ictimaiyyət nümayəndələrinə, ziyalılara, eləcə də onların şərböhtan kampaniyalarına dəstək verməyən insanlara qarşı qeyri-əxlaqi davranışlar, təhqirlər radikal müxalifətin əxlaq probleminin olduğunu tam sübuta yetirir.

Şər, böhtan, qarayaxma üslübü ilə seçilən radikal düşərgə indi də öz leksikonunu küçə söyüşləri ilə zənginləşdirib. Adları indiyə qədər cəmiyyətə məlum olmayan şəxslərin simasında müxalifət özünə yeni silahdaşlar tapıb. Əslində, bu əxlaqsız mübarizə metodunun müxalif düşərgə üçün heç də yad olmadığını göstərən yaxın keçmişdə kifayət qədər sübütlar var. Bunun üçün cəmiyyətə özünü "ana" müxalifət kimi sırımağa çalışan Əli Kərimli və onun silahdaşlarının sırasına nəzər yetirmək kifayətdir. Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl, Türkel Kərimlinin vaxtilə yayılmış videoları hələ də unudulmayıb. Bu satqınların təmsil olunduğu düşərgənin öz əxlaqsızlıqlarını siyasi mübarizə səhnəsinə daşıması ola bilsin ki, onlar üçün normal haldır. Adını "siyasi mübarizə" qoyub qarşılarındakı insanları küçə söyüşləri ilə təhqir edən bu insanlar onları ilk növbədə öz ailə üzvlərinin izlədiyinin yəqin ki, fərqindədirlər. Amma görünür onlar öz ailələrinə də bunu rəva görürlər.




Araşdırmalar göstərir ki, radikal düşərgə təmsilçiləri öz güclərini Avropadakı məlum antiazərbaycançı şəbəkədən alırlar və fəaliyyətlərini də buna uyğun koordinasiya edirlər. Əxlaqı korlanmış "sosial media qəhrəmanları" Avropada oturub Azərbaycan əleyhinə təbliğat aparırlar və radikal düşərgə təmsilçilərinə konkret istiqamət verirlər. Amma maraqlısı odur ki, xaricdəki siyasi buqələmunlar etiraz formalarını açıq və sivil formada göstrərmək üçün məkan olaraq izdihamlı yerləri yox, ayaqyollarını seçirlər. Bununla da mahiyyət etibarilə "ayaqyolu müxalifəti" funksiyasını daşıdıqlarını göstərirlər.

Ən iyrənc yola rəhbərlik edən Əli Kərimli "ayaqyolu müxalifəti"nə də rəhbərlik etməyi ilə "qürur" duyur. Bu təəccüb də doğurmur. Çünki Əli Kərimli birbaşa nəzarətində olan cəbhə trolları da ən təhqiramiz ifadələrlə insanların heysiyyatına toxunurlar. Onlar üçün müqəddəs dəyərlər artıq yoxdur. Əxlaq problemləri mövcud olan bu şəbəkənin konkret missiyası var: "bizi dəstəkləməyənlər düşmənlərimizdir". Ancaq bir əxlaqsızlıq, mənəviyyatsızlıq baş verdikdə isə bunu sosial şəbəkə vasitəsilə tirajlayırlar. O zaman...

### "Vicdan susanda"....

Bu yerdə bir faktı xatırlamaq istərdim. Belə ki, "Milli Şura"nın sədirciyi Cəmil Həsənli deputat olduğu zaman, yəni 2010-cu ildə Milli Məclisdə dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsində çıxış edərək nə demişdi? "Bu gün 2011-ci ilin dövlət büdcəsi müzakirə olunur. Demək istəyirəm ki, müzakirəyə təqdim olunan büdcə kifayət qədər peşəkarcasına hazırlanıb. Bununla belə, büdcə gəlirləri artım tempini saxlamaqdadır. Təbii ki, bu, müsbət tərəfdir". Əslində, C.Həsənlinin hədyanlarına cavab verməmək də olardı. Ancaq bəzən insan ləyaqətini gözləyib susanda, "vicdan da susur"! Vicdan susanda isə faciələrin ardı-arası kəsilmir. Xüsusilə, mövzu Vətən, dövlət və Qarabağdırsa, səbir kasası daşa bitər!

Budur, Əli Kərimlinin ətrafında olan C.Həsənli və onun kimi şikəst təfəkkürlülərin saxta əməlləri...daha doğrusu, tryapkaların əxlaqsızlığı. Budur onların əsl simaları!

### Siyavuş Novruzov: "Azərbaycan xalqı çox haqlı olaraq, bu şəxslərin üstündən vaxtında xətt çəkib və tarixin arxivinə, zibilliyinə yollayıb"

Bu yerdə YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov onların əsl siması ilə bağlı dediyi fikirlər: "Ermənilərdən pul alan, rəqiblərinin əleyhinə bütün separat danışıqlara gedən, sosial dəstəyə və elektorata malik olmadığına görə qorxudan heç bir seçkiyə qatılmayan, adı ictimai rəydə xəyanət və satqınlıq ifadələri ilə assosiasiya olunan Əli Kərimlinin indi "internet şousu" vasitəsilə özünü qəhrəmana çevirməyə, hakimiyyəti isə ləkələməyə çalışması cəhdləri cılız səylər kimi iflasa məhkumdur.

Nəticə etibarilə, bu gün Azərbaycan dövlətinə qarşı "qara piar" kampaniyası aparan, ölkəmizin uğurlarına kölgə salmağa çalışan, xalq-iqtidar birliyini, ictimai-siyasi sabitliyi və milli həmrəyliyi pozmağa cəhd edən antimilli ünsürlər, sadəcə olaraq, erməni mənşəli şəxslər və erməni çörəyi yeyənlərdir! Azərbaycan xalqı çox haqlı olaraq, bu şəxslərin üstündən vaxtında xətt çəkib və tarixin arxivinə, zibilliyinə yollayıb".

Beləliklə, göründüy kimi, erməni çörəyi yeyən bu viruslar bütün əhali üçün böyük təhlükə mənbəyi olan koronavirus infeksiyasından öz çirkin məqsədləri üçün istifadə etməkdən çəkinməyən bədbəxt və rəzillərdir. Və onlar hər hansı iddia, "bəyanat" səsləndirərkən yalnız özləri deyib-özləri eşidirlər. Belələri Azərbaycan dövlətinin qüdrətlənməsinə, dünyada söz sahibinə çevrilməsinə qarşı çıxış edən aşkar düşmənlərimiz - ermənilərin nökərləridirlər və lazım olan zaman çoxdan çatıb. Həmin zaman ki, belə xainlər barədə ciddi ölçülər götürülsün!

***Rəfiqə HÜSEYNOVA***

## "Maskanı yalnız çənəyə taxmaqla özümüzü qəhrəman hesab edirik"

***"Qonşu Gürcüstanda gündəlik yoluxmalar 2-3 nəfərdir. Avropa ölkələrində də koronavirusun artım dinamikasının aşağı endiyini görürük. Onu da görürük ki, hansı ölkələrdə COVID-19 təhlükəsi azalır, o ölkələrin insanları müəyyən olunmuş qaydalara daha çox ciddi riayət edirlər". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü olan deputatı Azər Badamov deyib.***

Millət vəkili bildirib ki, bu gün əsas vəzifəmiz pandemiya ilə effektiv mübarizə aparmaqdır və bu istiqamətdə artıq narıncı zona elan olunmuş yerlərdə yenidən sərt karantin rejimi tətbiq olunmuşdur: "İnsanlardan maksimum dərəcədə yaxın təması azaldılması tələb olunur. Ehtiyac olmadığı hallarda küçəyə çıxmamaqları tövsiyyə olunur. Tibbi maska həyatımızın bir nömrəli vasitəsinə çevrilməlidir. Artıq ikinci gündür ki, sərt karantin rejimi tətbiq olunub. Müşahidələrimiz bizə göstərir ki, bəzi insanlarda COVID-19 infeksiyasının necə dəhşətli olması barədə hələ də məlumat yoxdur və yaxud da məsuliyyətsizlik bizim içimizdədir. Çünki, artıq tanış və yaxınlarımızın da bu xəstəlikdən necə əziyyət çəkdiyini görürük. Bu xəstəliyin ağır fəsadları KİV-də gecə gündüz təbliğ olunur. Dövlət cəmiyyətin maarifləndirilməsi üçün bütün imkanları ortaya qoyub. Biz necə cavab veririk? Çox təəssüf ki, tibbi maskadan istifadə etməkdən imtina edənlər var. Avtobus sürücülərindən başlamış xidmət sahələrinə qədər insanların əksəriyyəti tibbi maskanı çənəsinə taxmaqla kifayətlənir və hardasa bir yoxlama görəndə tez maskanı ağıza keçirməklə kimisə aldatmış hesab edir. Belə hərəkətlərlə, nəzarətdən yayınmaqla özümüzü qəhrəman hesab edirik. Biz dərk etmirik ki, belə hərəkətlərimizlə heç kimi aldatmırıq. Biz özümüz özümüzü aldadırıq. Bu hərəkətlərimizlə biz özümüzü və cəmiyyəti təhlükə altına atmış oluruq".



Azər Badamovun sözlərinə görə, pandemiya ilə mübarizədə hansı ölkələrin vətəndaşları düşünülmüş şəkildə qaydalara riayət edirsə, o ölkələrdə infeksiyanın yoluxma sürəti minimuma enmişdir, məsələn, qonşu Gürcüstanda gündəlik yoluxmalar 2-3 nəfərdir: "Avropa ölkələrində də koronavirusun artım dinamikasının aşağı endiyini görürük. Onu da görürük ki, hansı ölkələrdə COVID-19 təhlükəsi azalır, o ölkələrin insanları müəyyən olunmuş qaydalara daha çox ciddi riayət edirlər. Bizdə maarifləndirmə ilə bağlı qeyd etmək istəyirəm ki, bir istiqamətdə dövlət bütün imkanlardan istifadə etmişdir. Görürük ki, maarifləndirmə bizə heç yaxşı təsir etmir. Ona görə də qanunların daha da sərtləşdirilməsinə ehtiyac olduğunu düşünürəm. Cərimələr sərtləşdirilməlidir. Hətta, həbs, qəti imkan tədbirlərindən də istifadə olunmalıdır. Burada heç kimə güzəşt olunmamalıdır. Çünki, bu ölkənin milli təhlükəsizlik məsələsidir. Yenə qeyd etmək istəyirəm ki, heç kimə güzəşt olunmadan ciddi cəza tədbirləri işə salınmalıdır. Məhz, belə olan halda bu gözə görünməz bəla ilə effektiv mübarizə aparmaq olar. Yoxsa dövlətin iqtisadi imkanları da xərclənir, bütün resurslar da bu işə cəlb olunub, bəzi məsuliyyətsiz insanların ucbatından görülmüş bütün işlər heçə enir".

***Nigar Məmmədova***



## Artur Vanesyan: "Paşinyan, nəticəsi çox ağır olacaq bir cinayətə yol verir"

Nikol Paşinyan hakimiyyətini qorumaq üçün hər şeyə əl atır və onu heç nə dayanmayacaq. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri "Rodina" partiyasının sədri Artur Vanesyan öz açıqlamasında deyib.

Partiya sədri qeyd edib ki, Nikol Paşinyan aylardır Konstitusiya Məhkəməsinə və Konstitusiya Məhkəməsi hakimlərinə etdiyi təzyiqlərin ardınca, onun göstərişləri ilə konkret bir cinayət olan qanun layihəsi də bugünkü parlament iclasının gündəliyinə daxil edilib. O, həmçinin nəzərə çatdırıb ki, Nikol Paşinyan, bu cinayətə ən azı 88 deputatın iştirak etdiyi bir qrup şəklində, hakimiyyəti ələ keçirmək və konstitusiya quruluşunu devirmək üçün gedir. Artur Vanesyan millət vəkillərinə də müraciət edib. "Sizi Ermənistanın Baş naziri vəzifəsini tutan balanssız bir şəxsin qanunsuz təlimatlarına əməl etməkdən çəkinməyə çağırıram. Nikol Paşinyan sizi cinayət törətməyə vadar edir. Amma nəticəsi ilk növbədə dövlətimiz üçün, sonra da hər birimiz üçün çox ciddi olacaq. Bugünkü səsvermə ilə siz Nikol Paşinyanın hərəkətlərindən cinayət və siyasi məsuliyyəti ayıracaqsınız.

Yaranan vəziyyətə görə "Rodina" partiyası "Konstitusiya quruluşunun bərpası Komitəsi" yaratmaq təşəbbüsü ilə çıxış edir və dövlətin taleyi ilə maraqlanan bütün ictimai-siyasi qüvvələrə təcili məsləhətləşmələrə başlayır", deyə Artur Vanesyan bildirib.

# Erməni "alimləri"nin təhrifçilik fəaliyyəti

***Erməni "alimləri" əsrlər boyu yaranmış Gürcüstan və Ermənistan xalqları arasındakı dostluq münasibətlərini və münasibətlərini təhrif etməklə, o cümlədən gürcü kitabələrini silərək onları erməni yazıları ilə əvəz etməklə Gürcüstanın maddi və mədəniyyət abidələrinin mənimsənilməsinə kömək edən bu meyillərin möhkəmlənməsində xüsusi rol oynamışlar. "Alimlər"in bəziləri isə guya Cavaxetiyanın XX əsrin əvvəllərində və bu günə qədər gürcülərin qazandıqları qədim erməni diyarı olması barədə cəfəng fikirlər irəli sürürlər ki, kiçik bir gürcü diasporu da bunun intensiv şəkildə istismarını həyata keçirir .***

Regionda ekstremist tendensiyaların inkişafında rus hərbi bazası kifayət qədər mənfi rol oynamışdır ki, onun da işçilərinin 70%-i yerli əhali idi. Faktiki olaraq, məsələ Ermənistan-Rusiya bazası ilə əlaqədar olmuşdur, bu baxımdan onun məqsəd və vəzifələrini, məlumat bazasının girişində General Paskeviçin portreti ilə asılmış "bu torpağa qorxmadan sahib ol. Rus ordusu səni qoruyacaq" yazısı əyani şəkildə sübut edir .

Qeyd etmək yerinə düşər ki, Cavaxetiyanın erməni əhalisi məhz rus hərbi bazasının köməyi ilə xeyli miqdarda odlu silah yığmış, onların köməyi ilə isə ekstremist ruhlu yerli əhali Gürcüstan hakimiyyətinə teztez təzyiqlər göstərmişlər.

Cavaxetiya gənclərinə son dərəcə mənfi təsir göstərən bir məqam, Ermənistan məktəblərində tarixin İrəvanda tərtib edilmiş, Ermənistan-Gürcüstan münasibətlərinin və region tarixinin bir çox epizodlarının təhrif olunduğu eləcə də həqiqətə uyğun olmayan proqram və dərsliklərin əsasında öyrədilməsidir. Anlaşılmazlıqların aradan qaldırılması üçün Zaqafqaziya tarixçilərinin Zaqafqaziya xalqlarının ümumi tarixini tərtib etmələri, eləcə də Zaqafqaziya ölkələrinin və xalqlarının çoxəsrlik hadisələrini və tarixi faktlarını obyektiv və düzgün şəkildə təsvir etmələri daha yaxşı olardı.

Cavaxetiya əhalisinin çox ağır sosial-iqtisadi və məişət şəraitinə diqqət yetirməmək olmaz ki, bu da bir tərəfdən yerli erməni əhalisinin Gürcüstanın mərkəzi hakimiyyətinə qarşı narazılığını artırmış, digər tərəfdən isə regionun azsaylı gürcü əhalisinin Gürcüstanın daxili rayonlarına miqrasiyası prosesinə səbəb olmuşdur.

Bu vəziyyəti nəzərə alaraq, Gürcüstan Milli Akademiyasının regional elmi-tədqiqat xidməti, cari əsrin əvvəllərində Gürcüstanın sabiq prezidenti cənab E.Şevardnadzeni "Cavaxetiya təsərrüfatının bərpası və inkişafı, region əhalisinin məşğulluğunun və məişət şəraitinin yaxşılaşdırılması proqramı" layihəsini işləyib hazırlamışlar ki, buna cavab verilməsi məqsədi ilə də prezidentin dəftərxanasından cənab Q. Baramidzenin o zamankı qubernatoru tərəfindən göndərilmiş və bununla da hər şey başa çatmışdır.

Gürcüstan Milli Akademiyası, hazırda regionun intellektual qüvvələri ilə birlikdə Axalkələk və Ninotsmind rayonlarının inkişafı ilə bağlı konkret tədbirlərin, icraçıların, həyata keçirilmə müddətlərinin, o cümlədən, əmək, maddi və pul xərclərinin, eləcə də gözlənilən sosial və iqtisadi səmərənin nəzərdə tutulacağı müvafiq geniş proqramı işləyib hazırlamağa hazırdır.

Cavaxetiyada ağır demoqrafik vəziyyət, ilk növbədə, erməni əhalisi üçün faydalı deyildir, çünki bu vəziyyət onların özünütəcrid etməsinə və əhalinin, xüsusilə də gənclərin separatçı əhval-ruhiyyəsinin inkişafına kömək edir. Bununla əlaqədar olaraq, əhalinin sosial-iqtisadi və məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, regionun demoqrafik vəziyyətinin yaxşılaşdırılması üçün də təsirli tədbirlər görmək lazımdır.

Son illər Cavaxetiyada erməni əhalisinin (Qokio, Okami və s. kəndlər) gürcü kəndlərinə məskunlaşması meyli müşahidə edilir. Gürcüstan və gürcü kəndlərinin son dərəcə məhdud olduğu bir şəraitdə isə belə bir vəziyyət arzuolunmazdır, çünki bu, gürcü əhalisinin regiondan miqrasiyasına səbəb ola bilər.

Yaranmış vəziyyətdən çıxmaq üçün, ilk növbədə, əvvəllər miqrasiyaya uğramış gürcü əhalisinin və onların nəslinin Cavaxetiyaya qayıtmasını təşviq etmək lazımdır. Bununla yanaşı, Cavaxetiyada baş vermiş təbii fəlakətlər (zəlzələlər, daşqınlar və s.) üzündən Gürcüstanın digər regionlarının sakinlərinin məskunlaşmasını da hər vasitə ilə təşviq etmək lazımdır.

Axalkələk şəhərinin ətrafında məskunlaşmış Çıldır vilayətinin Veli qəsəbəsinin erməniləşmiş gürcü katoliklərinin nəslinə yardım göstərmək və onların öz uzaq əcdadlarının vətəndaşlığını könüllü surətdə bərpa etmək məqsədəuyğundur.

Regionda ötən əsrdə ləğv edilmiş bəzi gürcü kəndlərinin bərpası arzu olunandır. Onların sırasına, ilk növbədə, müsəlmanların regiondan 1944-cü ildəki deportasiyasından sonra qonşu Okami kəndində məskunlaşdıqları Kilda kəndini də aid etmək olar. Kilda kəndinin əhalisinin bir hissəsi Gürcüstanın daxili regionlarına köçürülmüşdü.

Keçmişdə Kilda kəndi regionun nüfuzlu kəndlərindən biri sayılırdı. XI əsrdə kənddə, hətta Romanovlar sülaləsinin dövründə tikilmiş, demək olar ki, dağılmış Müqəddəs Georgi kilsəsi bu kəndin mərkəzində ucaldılmışdır. Bununla yanaşı, keçmişdə olduğu kimi, Romanovlar sülaləsinin dövründə də kənddə yeddi illik məktəb fəaliyyət göstərmişdir. Bu kənddən çıxanların çoxu, eləcə də onların nəsli respublikanın tanınmış alimləri və görkəmli xadimləri olmuşlar ki, bunlara da misal olaraq Gürcüstan SSR EA-nın akademiki Şalva Ekvtimoviç Mikeladzeni, onun oğlu texniki elmlər doktoru, professor Merab Mikeladzeni; tanınmış həkim, rentgenoloq, professor David Alekseeviç Mikeladzeni; tanınmış alim, mədənçi, Gürcüstanın Elm və Texnika üzrə Dövlət Mükafatı laureatı, texniki elmlər doktoru, professor Aleksey Mikeladzeni; Sovet ordusunun görkəmli hərbi komandiri, general - mayor Mixail Qarsevanoviç Mikeladzeni, polkovnik Georgi Nadiradzeni, məşhur opera müğənnisi Nutsa Mikeladzeni; tanınmış şair Soso Balaxadzeni və başqalarını göstərmək olar. Bu kəndin köhnə sakinləri və onların nəvələri, hazırda rəsmi hakimiyyətin dəstəyi ilə bu məşhur kəndin bərpasına dair nəcib bir işə birlikdə daxil olmağa hazırdır.

Real gücü, Cavaxetiyada bu günə qədər qalan, çətin iqlim şəraitində çalışqanlığı, dürüstlüyü və iddiasız həyatı ilə həmişə fərqlənən duxoborlara vermək lazımdır.

1944-cü ildə deportasiya olunmuş müsəlman-mesxlərin (gürcülərin) və onların nəslindən olan məhdud saydakı kontingentin bəzi kəndlərdə (Dankali, Okami, Azmana, Kartsebi, Miraşxani, Marqastani, Tmoqvi, Tsunda, Nakalakevi və s.) məskunlaşdırılması olduqca faydalı ola bilər.

Cavaxetiyadakı demoqrafik vəziyyət regionun inzibati-ərazi islahatının aparılması zamanı əhəmiyyətli dərəcədə yaxşılaşacaq. Xüsusən də, Axalkələk, Ninotsmind və Aspind rayonunun bir hissəsinin kanyon boyunca, Kür çayının yuxarısındakı Axalkələk rayonu ilə, digər hissəsinin Ahalsıx və Adıqen rayonları ilə, qalan hissəsinin isə Aspind rayonu ilə Axalsıx rayonuna birləşdiyi zaman bu baş verə bilər. Borjom rayonu isə öz əvvəlki sərhədlərində qalacaqdır.

Gürcüstanda Axalkələk hərbi bazasının yerləşməsi ilə bölgənin demoqrafik vəziyyəti də xeyli yaxşılaşa bilər, o cümlədən, belə bir vəziyyətdə burada həm də yerli əhalinin hərbi xidmətə çağırışçıları da xidmət edə bilər. Bu halda isə bəzi ekstremistlərin regionun yerli əhalisinin özlərini təhlükəli hiss edəcəklərinə dair iddialarını isə əsaslı hesab etmək olmaz. Axalkələk şəhərinin köhnə əhalisi yaxşı xatırlayır ki, İkinci Dünya müharibəsi dövründə və ondan sonrakı dövrdə Axalkələkdə Gürcüstanın qoşun hissələri yerləşmişdi, Sovet-Türkiyə sərhədinin o biri tərəfində isə türk ordusunun sanballı qüvvələri yerləşmişdi ki, onlar da özləri üçün münasib olan bir vaxtda Bakı neftinin, Çiatur manqanının eləcə də, Tkibul və Tkvarçel kömürünün ələ keçirilməsi məqsədilə Sovet İttifaqına qarşı müharibəyə başlamağı gözləyirdilər. Samtsxe-Cavaxetiyanın sakinləri, o cümlədən erməni əhalisi özlərini tamamilə təhlükəsiz hiss edirdilər. Bununla yanaşı, dağların yerli əhalisi Axalkələkin Gürcüstan hərbi hissələrinin köməkçi təsərrüfatında işləmiş, gürcü zabitlərinin ailələri isə ermənilərin evlərində yaşamışlar. O illərdə ermənilərin çoxu gürcü dilində danışa bilirdi.

Yuxarıda göstərilən tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsi, Cavaxetiyanın monoetnik bölgəsini çoxmillətli bir dost bölgəsinə çevirməyə imkan verəcəkdir ki, bu da ekstremist görüşlərə və hər hansı qanunsuz tələblərə dair zəmin yaradacaqdır.

Sonda qeyd etmək istəyirəm ki, Cavaxetiya - Gürcüstan, Ermənistan və Türkiyə arasındakı yolların qovşağında çox əhəmiyyətli strateji mövqeyə malikdir və ona görə də bu region Gürcüstan hökuməti tərəfindən xüsusilə ciddi diqqət tələb edir. Regionda xalqların və insanların qarşılıqlı surətdə razı olmamasının və inamsızlığının istənilən səbəbi aradan qaldırılmalıdır və qaldırıla bilər. İlk növbədə, əhalinin sosial-iqtisadi və məişət şəraitinin yaxşılaşdırılmasına və regionda demoqrafik vəziyyətin düzəlməsinə böyük diqqət yetirilməlidir. Cavaxetiya gürcü və qeyri-gürcü əhalisinin birgə şəkildə yaşaması üçün ölkənin nümunəvi bölgəsinə çevrilməlidir. Bu bölgənin hər bir sakini ölkənin şərəfini, konstitusiyasını və qanunlarını qoruyaraq Gürcüstanın layiqli və səlahiyyətli vətəndaşı olduğunu hiss etməlidir. Bölgədə istənilən qanunsuz təzahürlər aradan qaldırılmalıdır. Yerli əhalidən illər boyu qanunsuz olaraq yığılmamış odlu silahlar götürülməlidir.

**Vahid Ömərov**
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**23 iyun**

Son səhifə


## ŞOK: Dünyada 9 milyondan çox koronavirus xəstəsi var!




***Ü**mumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən təsdiqlənən dünyada koronavirusa yoluxanların sayı sutka ərzində 183 mindən çox artaraq 9 milyonu keçib. Ölənlərin sayı 4 mindən çox artaraq 462 minə yaxın oldu. SİA-nın verdiyi məlumata görə, bu barədə Ümumdünya Səhiyyə Təşkilatı məlumat verib.*

Bildirilib ki, dünyada 9 046 215 yoluxma və 461 715 ölüm halı qeydə alınıb. Sutka ərzində yoluxanların sayı 183 020, ölənlərin sayı 4743 nəfər artıb. Şimali və Cənubi Amerika bölgəsi yoluxanların sayına görə birinci yerdədir - 4 279 854. Sutka ərzində bu göstərici 116 041 artıb. Orada ölənlərin sayı 3 241 nəfər artaraq 219 144-ə çatıb. Avropada 2 527 618 yoluxma və 193 086 ölüm faktı qeydə alınıb. 24 saat ərzində orada yoluxanların sayı 17 922, ölənlərin sayı 442 nəfər artıb. Dünyada yoluxanların sayında üçüncü yeri Şərqi Aralıq dənizi bölgəsi tutur. Orada yoluxanların sayı 897 403-ə çatdı, 20 075 ölüm halı qeyd edilib. Sutka ərzində yoluxanların sayı 18 975 nəfər artıb, 515 nəfər ölüb. Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının hesabatı yalnız rəsmi göstəricilər əsasında hazırlanır.

## “Barselona”lı futbolçu “Yuventus”da 5,2 milyon avro qazanacaq




“Barselona”nın futbolçusu Artur karyerasını “Yuventus”da davam etdirə bilər. Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, Turin təmsilçisi 23 yaşlı yarımmüdafiəçiyə 5 illik müqavilə təklif edib. O, bu təklifi qəbul edəcəyi təqdirdə, “Yuventus”da ilinə 5,2 milyon avro qazanacaq. Bu isə braziliyalı oyunçunun “Barselona”dakı illik maaşından 2 milyon avro çoxdur. Qeyd edək ki, Artur bu mövsüm 26 matçda 4 qol vurub, eyni sayda qolun ötürməsini verib.



## Saçlarda kimyəvi prosedurlar döş xərçəngi riskini artırır

Milli Səhiyyə İnstitutunun (NIH) mütəxəssisləri, saçlarını müntəzəm olaraq kimyəvi düzləşdirmə və daimi boyama edən qadınların döş xərçənginə tutulma riskinin yüksək olduğunu müəyyən ediblər. Belə ki, alimlər 46,7 min qadın arasında apardıqları araşdırmaya əsasən, onların arasında saçların davamlı boyanması və kimyəvi düzləşdirilməsi üçün vasitələrdən istifadə edənlərin səhhəti ilə maraqlanıb və onlar üzərində müşahidələr aparıb.

Ən həssas olanlar afroamerikalılar olub. Bu qrup qadınlardan hər 5-8 həftədə saçlarını boyayanlarda xərçəngin inkişaf riski 60% təşkil edir. Ağ dərili qadınlar arasında da risklər də yüksəkdir, lakin bu göstərici ümumi 8%-dir.

NIH-ə görə, müasir saç boyası məhsullarının tərkibi, insanlar üçün kanserogen ola biləcək 5000-dən çox kimyəvi maddədən ibarətdir ki, bunların bəziləri baş dərisinə birbaşa nüfuz edə bilər.

Eyni qayda ilə müntəzəm olaraq kimyəvi saç düzləşdirmə də döş xərçəngi riskini 30% artırır. Bu prosedurlarda istifadə olunan maddələrin əksəriyyətinin tərkibinə kanserogen kimi tanınan formaldehid daxildir. Lakin heç də bütün mütəxəssislər Milli Səhiyyə İnstitutları(NIH) mütəxəssisləri nəticələri ilə razılaşmırlar. Birincisi, bu nəticələr ilk olaraq xərçəng inkişaf riskinə sahib ola biləcək qadınlar üçün edilir. İkincisi, döş xərçəngi ehtimalını artıran heç bir xüsusi maddə təyin edilməmişdir. Beləliklə, bu tədqiqat da mübahis mövzusu olaraq qalır.

## Çimərliklərə nəzarət gücləndirildi

Fövqəladə Hallar Nazirliyi (FHN) sərtləşdirilmiş karantin elan olunan ərazilərdə çimərliklərdən istifadənin qarşısını almaqla bağlı tədbirlərə başlayıb. Nazirliyin Mətbuat xidmətindən SİA-ya daxil olan məlumatda bildirilir ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə respublikanın bir sıra yaşayış məntəqələrində 2020-ci il 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək xüsusi karantin rejimi sərtləşdirilib: “Sərtləşdirilmiş xüsusi karantin rejimi müddətində vətəndaşların qaydalara əməl etməsi ilə əlaqədar çimərliklərdən istifadənin qarşısının alınması məqsədilə Fövqəladə Hallar Nazirliyinin müvafiq qüvvələri Daxili İşlər Nazirliyi ilə birgə fəaliyyətdə Xəzər dənizinin Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu sahili boyu həm quruda, həm də qayıqlarla dənizdə, eləcə də Lənkəran, Masallı və Cəlilabad rayonlarında patrul xidməti aparır. Vətəndaşları bir daha ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin bütün qərar və tövsiyələrinə ciddi riayət etməyə çağırırıq”.



## ŞOK: Dünyaya koronavirus yayan Çində “İt əti” festivalı başlayıb

Bütün dünyanı cənginə alan və 9 milyon nəfərin yoluxmasına səbəb olan koronavirus pandemiyasının ortaya çıxdığı Çində “Liçi və it əti” festivalı başlayıb.

Bu barədə “Sky News” informasiya yayıb. Xəbərə görə, koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivədinfə itlərin ferma heyvanı statusundan çıxarılmasına rəğmən, Qunaqçi əyalətinin Yulin şəhərində bu gün festivala start verilib.

Festivalda minlərlə it müxtəlif formalarda kəsilib bişirilərək sərgilənir.

Heyvan haqları müdafiəçisi Beynəlxalq Sivil Cəmiyyət Təşkilatının Çin üzrə mütəxəssisi Piter Li it ətinin yeni xəstəliklərə yol aça və sağlamlıq riskləri yarada biləcəyi mövzusunda xəbərdarlıq edib. O qeyd edib ki, it əti potensial bir epidemiya riskidir. Qeyd edək ki, it əti Çində 12,3 milyon dollarlıq ticarət həcminə malikdir./publika.az

## “Qarabağ” 3 futbolçu ilə yollarını ayırdı



“Qarabağ” üç futbolçusu - qapıçı Vaqner da Silva, müdafiəçilər Ailton Silva və Faysal Rerrasla yolları ayırdığını rəsmən açıqlayıb. Klubun mətbuat xidmətinin məlumatında deyilir ki, oyunçuların başa çatan müqaviləsi yenilənməyib. Qeyd edək ki, Vaqner da Silva 2018-ci ildən, Ailton və Faysal isə bu mövsümün əvvəlindən “Qarabağ”da çıxış edirdi. Ağdam təmsilçisi daha öncə hücumçu Maqaye Qeye ilə də vidalaşıb.

## DİN: Həftəsonu yol qəzalarında 5 nəfər ölüb

Həftəsonu daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, Respublikanın daxili işlər orqanları tərəfindən, iyunun 20-də törədilən 27 cinayətin üstü “isti izlər”lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalan 4 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 12 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 2 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Avtomobil yollarında 5 ağır yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 5 nəfər ölüb, 2 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 15, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 32 nəfər saxlanılıb.


***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**